

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN


14 iyun 2025-ci il, şənbə
№ 101 (6928)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




## 15 İyun Milli Qurtuluş Günüdür

Bax səh. 3

# Müstəqil Azərbaycanı quran Lider

## Xilaskarlıq missiyası

Azərbaycan xalqının taleyində müstəsna əhəmiyyət kəsb edən günlərdən biri də tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrilib.

Məlum olduğu kimi, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı. Ölkə daxilində müxtəlif silahlı qruplaşmaların hakimiyyət uğrunda savaşa çıxması həm siyasi böhrana səbəb olmuş, həm Azərbaycanı müxtəlif xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirmiş, həm də vətəndaşlarla siyasi rəhbərlik arasında kəskin konfrontasiyaların meydana çıxmasını şərtləndirmişdi. Məhz bütün bunların nəticəsi kimi, mövcud ictimai-siyasi xaos daha da dərinləşərək anarxiya həddinə çatmışdı.

Eyni zamanda, o dövrdə AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu proses 1993-cü ilin iyun ayında özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycanı bu təhlükəli vəziyyətdən yalnız böyük dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilərdi. Məhz belə bir zamanda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Naxçıvandan...

Bax səh. 4

## Milli Qurtuluş Günü - müasir dövlətçiliyimizin dönüş nöqtəsi

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müasir dövlətçilik ideyaları müstəqil Azərbaycanın milli inkişaf və rifah yolunu dəqiq şəkildə müəyyən etmişdir. Ulu Öndər xalqımızı zamanın ən çətin və taleyüklü sınaqlarından uğurla çıxararaq ölkədə sabitlik, tərəqqi və davamlı inkişafın möhkəm təməllərini yaratmışdır. Onun siyasi uzaqgörənliyi, milli maraqlara sadiqliyi və misilsiz xidmətləri tariximizdə silinməz izlər qoyaraq gələcək nəsillərə örnək olmuşdur.

1990-cı illərin əvvəlləri müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın tarixində ən mürəkkəb, ziddiyyətli və faciəvi bir dönəm kimi yadda qalmışdır. Bu mərhələ xaos, iqtisadi tənəzzül, silahlı toqquşmalar və xarici təhdidlərin hökm sürdüyü dərin böhranla müşayiət olunmuşdur. Respublikada siyasi rəhbərliyin səriştəsizliyi fonunda dövlətçilik ənənələrinin yetərincə formalaşmaması, həmçinin bölgələrdə separatizmin getdikcə güclənməsi kimi amillər ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə ağır bir şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev Bakıya dəvət olundu və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu əlamətdar hadisə parlamentin 27 iyun 1997-ci il tarixli qərarı ilə Milli Qurtuluş Günü kimi qeyd olunur.

Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri sayəsində qısa müddət ərzində ölkəmizdə sabitlik bərqərar edildi...

Bax səh. 5

## Azərbaycan tarixinin qürur səhifəsi

Tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günündən bizi 32 illik zaman məsafəsi ayırır. Bu 32 ilin hər günü, hər həftəsi, hər ayı müasir müstəqil Azərbaycan Respublikasının tarixinə misilsiz qələbələrlə həkk olunmuşdur. Bu qələbələrlə dolu illərin uğur salnaməsində 2020-ci ilin 27 sentyabrından sonrakı dövrün xüsusi yeri var. Beş il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun yazdığı şanlı Zəfər, ardından 2023-cü ilin sentyabrında suverenliyimizin tam bərpası 1993-cü il 15 İyun - Milli Qurtuluş Günündən başlayan yolun uğurlu nəticəsi idi. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan yeni dövrə qədəm qoydu.

XX əsrdə Azərbaycan iki dəfə müstəqillik əldə etdi - əsrin sonunda dövlət müstəqilliyimizin ikinci dəfə bərpa edilməsindən az sonra Azərbaycanımız böyük faciələrlə, təhlükələrlə üz-üzə qaldı. AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin törətdikləri qanunsuz əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratdı. Həmin dövrün iqtidarını dövlət maraqları deyil, öz şəxsi ambisiyaları düşündürürdü. Ölkədə xaos, anarxiya, özbaşınalıq baş alıb gedirdi. Ordu torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Ermənistan silahlı qüvvələri...

Bax səh. 4

## Qurtuluşdan Zəfərə

Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olması, dərin tarixi dövlətçilik ənənələrinə sadiq qüdrətli bir dövlətə çevrilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü il iyun ayının 15-i həm Azərbaycan dövləti, həm də dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar üçün şərəfli bir tarixdir. Çünki məhz bu tarixdə bir əsrdə ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan dövlətimiz anarxiyadan, daxili çəkişmələrdən, xaosdan qurtularaq öz əbədi müstəqilliyinə qovuşdu.

İndiki geosiyasi reallıqlarla paralel müqayisələr apardıqda Milli Qurtuluşumuzun dövlətimiz üçün hansı əhəmiyyəti daşıması daha aydın şəkildə görünür. Dünyanın bir çox ölkələrində eyni mənzərəyə şahidlik edirik - daxili çəkişmələr, siyasi böhranlar, hakimiyyət davası, hətta vətəndaş müharibələri... Bütün bu kataklizmlər nəticə etibarı ilə ən böyük zərəri məhz həmin dövlətə, dövlətçiliyə vurur, təməllərini sarsıdır, ciddi təhdid və təhlükə yaradır.

32 il bundan əvvəl Azərbaycanda da eyni mənzərə hökm sürürdü. XX əsrdə ikinci dəfə müstəqilliyini qazanan Azərbaycan qısa zaman sonra onu itirmək təhlükəsi yaşayırdı. 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin naşı, yarıtmaz siyasəti nəticəsində vəziyyət böhran həddinə çatmışdı. Yeni yaradılmış müstəqil dövlətdə hakimiyyəti liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum, vəziyyətdən çıxış yolu tapmaqda aciz insanlar qəsb etmişdi. Onlar baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Xalq isə qurtuluşunu, xilasını Azərbaycanın böyük oğlu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü...

Bax səh. 5



## 5-ci sosial paketin 2-ci mərhələsi...

Bax səh. 2

# Ümumi hədəflərə yönəlmiş hərtərəfli əməkdaşlıq

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin iştirakçılarına təbrik məktubu ünvanlayıb. Dövlət başçısı Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin Bakı şəhərində öz işinə başlaması münasibətilə tədbir iştirakçılarını təbrik edib, sağlamlığın qorunmasına yönəlmiş nəcib fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb: “İnsanların getdikcə daha sıx qarşılaşdıqları sağlamlıq problemlərinə diqqətin artırılması məqsədilə aktual mövzulu ilk belə tədbirin ölkəmizin paytaxtında təşkilini məmnunluq hissi ilə qarşılayır və bunu, Azərbaycanda onkoloji xidmətin ötən illər ərzində keçdiyi uğurlu yola, imza atdığı nailiyyətlərə verilən dəyərin xüsusi ifadəsi hesab edirəm.

Azərbaycanın səhiyyə sistemi bu gün müasir müayinə və müalicə üsulları üçün kifayət qədər geniş imkanlar yaradan zəngin maddi-texniki bazaya və yüksək hazırlıqlı kadr potensialına malikdir. Respublikamızda səhiyyənin ayrı-ayrı sahələrinin sürətli inkişafını nəzərdə tutan layihələr və dövlət proqramları ardıcıl icra olunur.

Türk Dövlətləri Təşkilatının ümumi hədəflərə yönəlmiş hərtərəfli əməkdaşlığı təşviq etməsi toplanmış qiymətli təcrübədən ölkələrimizin birgə faydalanmalarının və problemlərin həllində ortaq səyləri gücləndirmələrinin zəruriliyini ön plana çıxarır.



Bu baxımdan, Konqresdə dünyanın müxtəlif guşələrindən gəlmiş qabaqcıl mütəxəssislərin tibb elminin son yenilikləri əsasında birlikdə aparacaqları geniş diskussiya və ətraflı müzakirələrin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə qurumları qarşısında duran məsələlərin bir çox mühüm aspektlərini əhatə etməsi təqdirə layiqdir. İnanıram ki, Konqresiniz elmi və praktiki əhəmiyyəti ilə mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi işinə öz töhfəsini verəcək, Türk dünyası ölkələri onkoloqlarının gələcək qarşılıqlı fəaliyyətinin başlıca prioritetlərini müəyyən edəcəkdir”.

# 5-ci sosial paketin 2-ci mərhələsi...

## Prezident İlham Əliyev: Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar

Nümunəvi inkişaf modelinə malik olan Azərbaycanda Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq insanların rifah halının davamlı şəkildə yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirilib. Ölkədə aparılan məqsədyönlü siyasətin mərkəzində vətəndaşların maraqları dayanır. Bunu dövlətimizin başçısının imzaladığı Fərman və sərəncamlar əsasında uğurla reallaşdırılan sosial islahatlar da əyani şəkildə təsdiqləyir. Bu qəbildən növbəti nümunə dövlətimizin başçısının 12 iyun 2025-ci il tarixində “Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Fərmanı oldu. Sənəd sosial sferanın dəstəklənməsi baxımından növbəti mühüm addım kimi dəyərləndirilir.

**Müxtəlif istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımlar**

Azərbaycanın insanların həyat səviyyəsinin yüksəlməsini hədəfləyən siyasətinə uyğun olaraq ölkənin iqtisadi və maliyyə imkanları genişləndikcə sosial sferaya ayrılan vəsaitlərin həcmi də artırılır. Məlumdur ki, postmüharibə dönəmində respublikamızın gündəliyində bir sıra mühüm məsələlər yer alır. Xüsusilə də 30 illik işğal dövründə erməni vandalları tərəfindən tamamilə xarabalığa çevrilmiş ərazilərimizin bərpası, ora soydaşlarımızın ləyaqətli qayıdışının təmin edilməsi əsas vəzifələrdən biri kimi müəyyənləşdilib. Hazırda bu istiqamətdə böyük maliyyə tutumuna malik genişmiqyaslı layihələr reallaşdırılmasına baxmayaraq, ölkədə sosial sferanın prioritetliyi yenə də diqqət mərkəzində saxlanılır ki, bu da özlüyündə Azərbaycanı nümunəvi bir dövlət kimi səciyyələndirir. Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli telekanallara müsahibəsində ölkəmizdə startı verilən yeni sosial islahat paketi barədə danışaraq vurğulamışdı: “Bu qədər böyük sərmayələr qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək, əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. Yəni, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar”.

Bəhs olunan Fərmanla ölkəmizdə sayca 5-ci sosial paketin iyul ayından etibarən icrasına başlanacaq. Onun əhatə dairəsi kifayət qədər genişdir. Burada müxtəlif istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımlar nəzərdə tutulur. Beləliklə, dövlətimizin başçısının imzaladığı Fərmanla iyulun 1-dən Azərbaycanda şəhid ailələrinin, 20 Yanvar şəhidi ailələri, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 700 manat müəyyənləşdirilib. Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının itirilməsinə görə müavinətlər də müvafiq olaraq artırılıb. Bundan başqa Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü, uşağın anadan olmasına görə birdəfəlik müavinət, dəfn üçün birdəfəlik müavinət, himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət lər də müvafiq yaş qrupları üzrə artıb. Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının pozulmasına görə (faiz dərəcələri üzrə), övladlığa götürülən hər uşağa görə aylıq müavinət, ailə başçısını itirməyə görə aylıq müavinət, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı yardım alan) hər uşağa görə aylıq müavinət, beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü, eləcə də fəxri adlara layiq görülmüş şəxslərin aylıq təqaüdləri gələn aydan artımla veriləcək. Göründüyü kimi, bəhs olunan Fərmanın əhatə dairəsi kifayət qədər genişdir. Sənədə əsasən, sosial müavinət və təqaüdlər orta hesabla 20 faiz artırılır.















**3 milyon insanı əhatə edən sosial islahat paketi**

Dövət büdcəsində sosialyönümlü xərclərin ildən-ilə artırılması Azərbaycanda sosial siyasətin ardıcıllığının əyani təsdiqidir. Bu xərclər 2019-cu ildəki 7,8 milyard manatdan 2,2 dəfə artımla 2025-ci ildə 16,9 milyard manata çatıb. Bütövlükdə, bu gün sosialyönümlü xərclər dövlət büdcəsinin 41 faizini təşkil edir ki, bu da kifayət qədər yaxşı göstəricidir.

Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə cari ilin əvvəlindən icrasına başlanan 5-ci sosial paket 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Xatırladaq ki, 5-ci sosial islahat paketinin ilk mərhələsində ölkədə:

- Bu il yanvarın 1-dən minimum əməkhaqqı 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb;

- Minimum əməkhaqqı artımına uyğun olaraq Nazirlər Kabinetinin təsdiq etdiyi Vahid Tarif Cədvəlinin 19 pilləsinin hər biri üzrə maaşlar orta hesabla 16 faiz artırılıb və beləliklə, minimum əməkhaqqı artımı yalnız minimum əməkhaqqı alanların maaşlarında deyil, dövlət və özəl sektorda çalışan, müxtəlif məbləğlərdə əməkhaqqı alan ümumilikdə 700 min işçinin maaş artımına imkan verib;

- Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb;

- Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin maaşları, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri və s. artırılıb.

- Bütün növ pensiyalar 2025-ci ilin əvvəlindən indeksləşdirilərək 8,1 faiz artırılıb.

- 2025-ci il fevralın 1-dən minimum pensiya 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb;

- 2025-ci il üçün yaşayış minimumu və ehtiyac meyarı da 270 manatdan 285 manata çatdırılıb.

***Mübariz ABDULLAYEV***

# Milli Məclisin iclasında...

## Deputatlar 12 məsələni müzakirə ediblər



İyunun 13-də Milli Məclisin növbəti iclası keçirilib. Əvvəlcə Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək iclasın 15 İyun Milli Qurtuluş Günü ərəfəsində keçirildiyini xatırladıb. O bildirib ki, 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndərin siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bildi. Ümummilli Liderimizin məharətlə və əzmlə xilaskarlıq missiyasını həyata keçirməsi, hüquqi, demokratik və dünyəvi dövlətin möhkəm təməlini yaratması Azərbaycanın tarixinə milli qurtuluş və quruculuq dövrü kimi əbədi həkk olunub.

Spikerin sözlərinə görə, Ulu Öndərin başladığı tarixi missiya bu gün eyni əzm və iradə ilə davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət ölkəmizi keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəldib. Azərbaycan dinamik iqtisadi artıma nail olub, nəhəng infrastruktur layihələri həyata keçirib, ordunu möhkəmləndirib. “Bu gün Azərbaycan Respublikası dünyanın geniş bir bölgəsində söz sahibi olan qüdrətli bir dövlətdir. Əminliklə söyləmək olar ki, Heydər Əliyev zəkasından güc almış Azərbaycan dövləti Prezident İlham

Əliyevin rəhbərliyi ilə qarşıdakı dövrdə yeni böyük uğurlara imza atacaq. Mən təklif edirəm ki, Milli Qurtuluş Günü münasibəti ilə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Və Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq”,-deyən S.Qafarovanın bu təklifi deputatlar tərəfindən alqışlanıb.

Spiker, həmçinin Milli Məclisin nümayəndə heyətinin 11-12 iyunda Qazaxıstanın paytaxtı Astana şəhərinə işgüzar səfəri barədə məlumat verib. Bildirilib ki, səfərdə məqsəd Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Şura iclasında və 14-cü plenar iclasında iştirak etmək idi. O, Qazaxıstan səfərinin uğurlu olduğunu söyləyib.

Qeyd edək ki, parlamentin iclasının gündəliyinə 12 məsələ daxil edilib. İlk olaraq “Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş”i təsdiq edilib.

Sonra Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsi müzakirəyə çıxarılıb. Layihədə Cinayət Məcəlləsinə cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan maddələrin dairəsinə, həmçinin şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə halının da əlavə edilməsi təklif edilir. Sənəddə Cinayət-Prosessual Məcəlləsi üzrə istintaq və təhqiqat orqanlarının struktur qurumlarının rəhbərlərinə cinayət təqibinə nəzarət çərçivəsində cinayət işi üzrə icraatın əhəmiyyətli dərəcədə ləngiməsinin qarşısının alınması məqsədilə müvafiq səlahiyyətlərin verilməsi təklif olunur. Eyni zamanda, son dövrlərdə müasir informasiya texnologiyalarından istifadə olunmaqla əhalinin bank kartı hesablarından pul vəsaitlərinin talanması hallarında bu cinayətlərin təqibinin operativliyini təmin etmək məqsədilə müvafiq dəyişikliklər də nəzərdə tutulur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə (üçüncü oxunuş) baxılıb. Layihə sağlamlığın qorunması hüququnun daha effektiv təmin edilməsi, həyat və sağlamlıq əleyhinə olan bəzi cinayətlərə qarşı mübarizənin gücləndirilməsi məqsədilə hazırlanıb. Sənəddə bir sıra cinayətlərin sanksiyalarında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına alternativ olan digər əsas cəzalar çıxarılmaqla, həmin əməllərə görə sanksiyanın sərtləşdirilməsi təklif edilir.

İclasda, həmçinin Əmək Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Özəl tibb fəaliyyəti haqqında” və “Dərman vasitələri haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi müzakirə edilib. Layihədə nəzərdə tutulan əsas dəyişiklik tibb mütəxəssislərinə sertifikasiya şəhadətnaməsini əldə etmək üçün 5 ildən bir sertifikasiya imtahanında iştirak etməklə yanaşı, elmi, pedaqoji və digər tədris fəaliyyətini ehtiva edən yeni - davamlı peşəkar inkişaf (DPİ) konsepsiyasının tətbiqi nəticəsində müvafiq kredit balları toplayaraq, sözügedən imtahandan azad olmaq hüququnu müəyyən edir. Digər dəyişiklikdə isə sertifikasiya imtahanından keçməyən tibb işçilərinin təkrar bu imtahandan keçənə qədər 6 ay müddətində vəzifə maaşının saxlanılması müəyyən edilir.

Qeyd edilib ki, sənədin qəbulu ölkəmizdə tibb mütəxəssislərinin bilik və bacarıqlarının səviyyəsinin artırılmasını təmin edəcək, əhaliyə keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər. Sonda spiker S.Qafarova növbəti iclasın iyunun 21-də keçiriləcəyini diqqətə çatdırıb.

***Nardar BAYRAMLI***

# Azərbaycan XİN: Hərbi əməliyyatlardan ciddi şəkildə narahatıq



Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) İsrail-İran qarşıdurması ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: “İsrail Dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan ciddi şəkildə narahatıq. Vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırırıq.

Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini xüsusi olaraq vurğulayırıq.

Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir”.

Bundan başqa XİN İsrailə səfər edən vətəndaşlarımıza da müraciət edib. Müraciətdə İsrail Dövləti və İran İslam Respublikası arasında yaranmış mövcud gərgin təhlükəsizlik vəziyyəti ilə əlaqədar Azərbaycan Respublikası vətəndaşlarının zəruri olmadığı təqdirdə İsrailə səfərdən çəkinmələri, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələri tövsiyə olunur.

Hazırda İsrail Dövlətində olan Azərbaycan Respublikası vətəndaşlarından mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, yerli qurumların verdiyi təhlükəsizlik təlimatlarına uyğun davranmaları xahiş olunur. Hər hansı bir fövqəladə vəziyyət ilə bağlı vətəndaşlarımızın Azərbaycanın İsraildəki səfirliyi ilə əlaqə saxlamaları xahiş olunub.

# Müstəqil Azərbaycanı quran Lider

## Heydər Əliyev dövlətimizin güclü iqtisadi və ideoloji əsaslarını yaratdı

Hələ sağlığında ikən Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə yüksələn böyük siyasətçi Heydər Əliyevin parlaq ideyaları daim mayak kimi yolumuzu işıqlandırıb və bundan sonra da işıqlandıracaq. Heydər Əliyev Azərbaycana ideoloji cəhətdən bir-birindən kəskin şəkildə fərqlənən iki formasiyada rəhbərlik edib. Lakin bu fərqliliyə baxmayaraq, O, hər iki dönəmdə respublikamızın sürətli inkişafına nail olmağı bacarıb. Bu, Onun müdrikliyinin, unikal idarəçilk qabiliyyətinin əyani göstəricisidir.

Azərbaycanda Heydər Əliyev epoxası 1969-cu ildən başlayıb. O, keçmiş sovet hakimiyyəti illərində rejimin buxovlarını məharətlə sındırmağı bacararaq respublikamızın gələcək müstəqilliyi üçün ideoloji və iqtisadi zəmin yaratmış, xalqın milli özünüdərk hissini gücləndirməyə nail olmuşdur. Sonrakı mərhələdə isə tale elə gətirdi ki, Azərbaycanın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyini qorumaq missiyası da Onun üzərinə düşdü. Belə ki, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə respublikamızın siyasi rəhbərliyinə gələn Ulu Öndər ölkədə vətəndaş müharibəsinin genişlənməsinə imkan vermədi, qısa müddətdə sabitliyi bərqərar etdi. Heydər Əliyevin verdiyi bir sıra müdrik qərarlar milli gücün Ermənistanın təcavüzünün qarşısının alınmasına, müstəqilliyimizin ideoloji və iqtisadi əsaslarının möhkəmlənməsinə zəmin yaratdı.

## Ulu Öndərin azərbaycançılıq ideologiyası

Hər bir dövlətin inkişafında onun ideoloji əsasları müstəsna önəm daşıyır. Milli-etnik və sosial mənsubiyyətindən asılı olmayaraq, cəmiyyətin bütün təbəqələrinin vahid məqsədlər uğrunda səfərbər edilməsi son nəticədə qarşıya qoyulan hədəflərə çatmağa güclü impuls verir. Bunu qısa müstəqillik tarixində bütün sahələrdə möhtəşəm uğurlara imza atan, dünyanın sayılıb-seçilən ölkələrindən birinə çevrilən, milli maraqlarını qətiyyətlə qorumağı bacaran Azərbaycanın təcrübəsində aydın şəkildə izləmək mümkündür. Müstəqil Azərbaycan dövlətinin ideoloji əsasını xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu azərbaycançılıq ideologiyası təşkil edir. Bu ideologiya həm milli-etnik və sosial mənsubiyyətindən asılı olmayaraq, ölkənin bütün vətəndaşlarını, həm də respublikamızın hüdudlarından kənarda yaşayan azərbaycanlıları vahid amal uğrunda birləşdirməyə xidmət edir. Azərbaycançılıq ideologiyası Vətəni, milli maraqları hər şeyin fövqündə qoyur. Ulu Öndərin qənaəti belə idi ki, hər bir azərbaycanlı Vətənin ona nə verdiyi barədə deyil, onun özünün Vətənə nə verdiyi barədə düşünməlidir. Ümummilli Liderimizin həyatı və fəaliyyəti də məhz bu prinsip üzərində qurulmuşdu. Onun tərcümeyi-halı, keçdiyi yol azərbaycanlılar üçün əsl örnəkdir. Bütün varlığı ilə doğma Azərbaycana bağlı olan dahi şəxsiyyət Heydər Əliyevin kritik məqamlarda xalqına dayaq durması, Vətənin köməyinə gəlməsi, həmişə insanların qəlbində ümid işığı yandırması böyük vətənsevərlik nümunəsidir. O, nə edirdisə, Azərbaycan naminə edirdi.



Biz tarixdə bu və ya digər ölkədə elan edilən hansısa bir təmtəraqlı ideologiyanın öz ömrünü elə beşikdəcə başa vurduğunun şahidi olmuşuq. Bu qəbildən olan ideologiyaların həyat qabiliyyətindən məhrum qalması onların milli maraqlara və zamanın çağırışlarına uyğun təməl prinsiplərinin olmaması ilə bağlıdır. Tarixi təcrübə göstərir ki, inzibati resurslar tükəndikdə və yaxud formasiyalar dəyişdikdə cəmiyyətlərə sırınan saxta ideologiyalar da tarixin arxivinə göndərilir.

Azərbaycançılıq isə uzunömürlü, gələcəyə hesablanan, milli dövlətçiliyimizin güclənməsinə xidmət edən bir ideologiyadır. Əslində, azərbaycançılıq ideologiyasını xalqımızın özünəməxsusluğunu şərtləndirən dəyərlərin ümumi bir məcmusu kimi də səciyyələndirmək mümkündür. Azərbaycançılığın ayrılıqda dövlətçiliyin, hər bir azərbaycanlının məfkurəsinə və ümummilli səviyyədə bizi birləşdirən çox mühüm ideoloji platformaya çevrilməsi məhz bununla bağlıdır.

Məlumdur ki, hazırda dünyada yaşanan bir sıra hadisələr, ələlxüsus da qloballaşma deyilən proses milli dövlətlərin və ayrı-ayrı xalqların qarşısına yeni çağırışlar çıxarıb. Bu çağırışların mühüm bir qismi hər bir xalqın identlikliyini səciyyələndirən milli-mənəvi dəyərlərinin getdikcə artan təzyiqlərdən qorunması, onların daha da zənginləşdirilməsi və gələcək nəsillərə ötürülməsi ilə bağlıdır. Bu kontekstdə Azərbaycandakı mühit bir nümunə kimi diqqəti cəlb edir. Azərbaycan cəmiyyətində xalqımızın tarixin dərin qatlarından gələn zəngin milli-mənəvi və onun tərkib hissəsi olan dini dəyərlərinə möhkəm bağlılıq var. Deyə bilərik ki, bu gün əcdadlarımızın bizə miras qoyduqları zəngin mənəvi irslə qürur duyur, bu irsi özümüzün gündəlik həyat tərzimizdə yaşatmağa çalışırıq. Eyni zamanda, Azərbaycan dövləti cəmiyyətdən gələn sosial sifarişə əsaslanaraq xalqımızın milli-mənəvi dəyərlərinin, ənənələrimizin yad təsirlərdən qorunub saxlanılmasına və daha da zənginləşdirilməsinə, milli və dini abidələrimizin bərpa olunmasına, yenilərinin tikilməsinə güclü siyasi iradə nümayiş etdirir. Öz növbəsində, dövlətin və cəmiyyətin birgə səyləri ilə qorunaraq daha da zənginləşdirilən milli-mənəvi dəyərlərimiz ölkəmizdə sabitlik, birlik, bərabərlik, həmrəylik ovqatının, tolerantlıq mühitinin daha da möhkəmlənməsində mühüm rol oynayır. Azərbaycan öz müstəqilliyini cəmi üç onillik bundan əvvəl bərpa edib. Ancaq məhz milli-mənəvi dəyərlərimiz, zəngin mədəniyyətimiz, dilimiz xalqımızı müstəqillikdən əvvəlki dövrdə assimilyasiyaya uğramaqdan qoruyub. Perspektivdə xalqımızın identikliyini saxlaması yenə də milli-mənəvi dəyərlərimizin qorunmasından, gənclərin vətənpərvərlik və milli ruhda tərbiyə edilməsindən asılı olacaq.

Müstəqil respublikamızda azərbaycançılıq ideologiyasının ölkəmizin milli gücünü artıran bir platformaya çevrilməsini təmin etmək üçün görülən məqsədyönlü tədbirlər, ardıcıl şəkildə aparılan təbliğat işi öz müsbət nəticəsini verir. Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan cəmiyyəti ümummilli məsələlər ətrafında sıx birləşən və öz qüvvəsini səfərbər edən bir cəmiyyətdir. Biz bunu ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ilə nəticələnən 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində bir daha gördük. Müharibə dövründə Azərbaycan cəmiyyəti, siyasi partiyalar, vətəndaş cəmiyyəti təsisatları Prezident, Ali Baş Komandan İlham Əliyevə, Ordumuza yüksək dəstək nümayiş etdirdilər. Müharibənin davam etdiyi günlərdə Prezident İlham Əliyevin ünvanına cəmiyyətin müxtəlif təbəqələrinin təmsilçilərindən, ayrı-ayrı xalqların nümayəndələrindən çoxsaylı məktublar daxil olurdu. Məktublarda vətəndaşlar Ali Baş Komandanın çağırışı ilə hər an döyüşlərə atılmağa hazır olduqlarını bildirirdilər.

Eyni zamanda, biz Vətən müharibəsi günlərində dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın ana Vətənə necə böyük rəğbət bəslədiklərinin bir daha şahidi olduq. Onlar ayrı-ayrı ölkələrin iri şəhərlərində müxtəlif səpkili aksiyalar keçirərək ermənilərin yalanlarını ifşa edir, Azərbaycan həqiqətlərini, o cümlədən də ölkəmizin ədalətli mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırırdılar. Bütün bunlar dünya azərbaycanlılarının qəlbinin ana Vətənlə döyündüyünü əyani şəkildə təsdiqləyir. Bütün bu reallıqlar isə bir daha deməyə əsas verir ki, azərbaycançılıq ideologiyası konseptual milli məfkurə kimi dünya azərbaycanlılarını eyni amal uğrunda sıx birləşdirib. Bu isə Azərbaycan dövlətinin milli gücünün mühüm tərkib hissəsi və dövlətimizin qüdrətinin əyani ifadəsidir.

## İslahatlar yolu ilə iqtisadi inkişafa doğru

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdəki fəaliyyəti, heç şübhəsiz ki, dövlət quruculuğunun bütün istiqamətlərini əhatə edirdi. Ölkənin qarşısında dayanan çoxsaylı prioritetlər sırasında əsas məsələlərdən biri də milli iqtisadiyyatın gücləndirilməsi idi. Ulu Öndər xüsusi olaraq vurğulayırdı ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Heydər Əliyevə AXC-"Müsavat" iqtidarından dağıdılmış, təchizat-satış əlaqələri pozulmuş iqtisadiyyat miras qalmışdı. Belə vəziyyətdə Heydər Əliyev iqtisadiyyatın dirçəlməsinə yönələn müdrik qərarlar qəbul etdi, o cümlədən 100-dən çox fərman və sərəncam imzaladı. Ulu Öndərin təşəbbüsü əsasında parlamentdə yeni qanunlar qəbul edildi. Nəticədə, 1995-ci ildən milli iqtisadiyyatımızda bərpa, 1996-cı ildən isə artım dövrü başladı.

Ən vacib məqamlardan biri o oldu ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcəyinə hesablanan yeni neft strategiyasını işləyib hazırladı və Xəzərin zəngin karbohidrogen ehtiyatlarının işlənməsinə xarici sərmayələri cəlb etməyə nail oldu. Yeni neft strategiyasının reallaşdırılması çərçivəsində Azərbaycan hökuməti ilə xarici şirkətlərin nümayəndələri arasında təxminən bir il gedən danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakıda 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi" adını alan müqavilə imzalandı. 1997-ci ildə "Çıraq" yatağından neft hasilatına start verildi. Bundan iki il sonra Azərbaycan "Əsrin müqaviləsi" çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı. Sonrakı illərdə neft gəlirlərinin artması hesabına ölkənin iqtisadi inkişafı üçün böyük imkanlar yarandı.

Bütövlükdə, 1995-2003-cü illər ərzində respublikamızda ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. Bəhs olunan dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində sərmayə yönəldildi.

Həmin dövrdə Azərbaycan müstəqilliyini bərpa etsə də, iqtisadiyyatda keçmiş sovet dönəmindən miras qalan yanaşmalar tətbiq edilirdi. Stereotipləri aradan qaldırmadan yeni dövrün iqtisadiyyatını da qurmaq mümkün deyildi. Bütün bunları nəzərə alan ulu öndər Heydər Əliyev qəti şəkildə belə müəyyənləşdirdi: Müstəqil Azərbaycanın iqtisadi inkişaf yolu islahatlar vasitəsilə liberializm prinsipinə əsaslanan bazar iqtisadiyyatına keçid yolu olmalıdır. Ümummilli Lider Heydər Əliyev iqtisadi sahədə dövlət siyasətinə belə aydınlıq gətirmişdi: "...Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun uğurla həyata keçirilməsi sayəsində ölkədə iqtisadi fəallıq artdı, iqtisadiyyatın müxtəlif sahələrinin investisiya təminatı gücləndi, tələbata işləyən geniş müəssisələr şəbəkəsi yarandı, fəal insanların məşğulluğu təmin olundu və bu əsasda əhalinin sosial vəziyyəti yaxşılaşdı.

Ümummilli Liderin siyasi iradəsinə uyğun olaraq ölkədə yaradılan mükəmməl hüquqi baza sosialyönümlü liberal iqtisadiyyat quruculuğuna uğurlu keçidi təmin edib. İlk növbədə onu vurğulayaq ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanıb qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması ilə bağlı müddəalar öz əksini tapıb. Ulu Öndər milli iqtisadiyyatın inkişafına mane olan bürokratik əngəllərin və o cümlədən də sahibkarlıq subyektlərində yoxlamaların qarşısının alınması, bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə bir sıra Fərman və sərəncamlar imzalayıb.



## Bu gün Azərbaycan zirvələrdədir

Hazırda ölkəmizdə xarici mənfi təsirlər nəticəsində yaranan yeni şəraitdə çağırışları önləmək və bundan sonra da inkişafın ardıcıllığını təmin etmək məqsədilə yeni nəsil iqtisadi islahatlar həyata keçirilir. Prezident İlham Əliyev ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artırılması, daxili istehsalın qorunması, sahibkarların vergi yükünün azaldılması yolu ilə vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının genişləndirilməsi, investisiya qoyuluşunun, ixracın təşviq edilməsi, "Made in Azerbaijan" brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən fərman və sərəncamlar imzalayıb. Aparılan islahatlar indiki şəraitdə Azərbaycanın müqavimət gücünü artıran və ölkəmizin qarşısında yeni inkişaf perspektivləri açan fundamental faktorlar qismində çıxış edir.

Ümummilli Liderin əsasını qoyduğu islahatlar kursu, sonrakı mərhələdə isə Prezident İlham Əliyevin ölkədə siyasi varisliyi təmin etməsi, o cümlədən də iqtisadi inkişafın dinamikliyinə nail olmaq üçün güclü siyasi iradə nümayiş etdirməsi Azərbaycanı iqtisadi cəhətdən müstəqil dövlətə çevirib. Öz növbəsində iqtisadi müstəqillik respublikamızın siyasi müstəqilliyinin təmin olunmasında mühüm rol oynayır. Bu gün heç bir güc mərkəzi respublikamızla diktat dili ilə danışa bilməz və danışmır da. Ölkəmizin, xalqımızın mənafeyi ilə bağlı bütün qərarlar milli maraqlarımıza, müstəqillik və suverenlik prinsipləriinə əsaslanmaqla məhz Bakıda Prezident İlham

Əliyev tərəfindən qəbul edilir. Bu gün müstəqil Azərbaycan zirvələrdədir. Ölkəmiz möhkəm daxili sabitliyi, dinamik inkişafı, multikultural mühiti ilə dünyaya gözəl bir nümunə təqdim edir. Qürurverici haldır ki, ölkəmizin müsbət təcrübəsi beynəlxalq miqyasda təqdir edilir və öyrənilir. Azərbaycanın əməkdaşlıq təşəbbüslərindən çıxış etməsi və yeni çağırışlar qarşısında qlobal həmrəyliyin güclənməsinə davamlı töhfələr verməsi beynəlxalq miqyasda respublikamıza və onun Liderinə inamı artırıb. Son illərdə aktual mövzularda keçirilən mühüm beynəlxalq tədbirlərə ev sahibliyi hüququnun Azərbaycana verilməsi, Prezident İlham Əliyevin həm Qlobal Cənub, həm də Qlobal Şimal qütblərinə aid ölkələri birləşdirəən nüfuzli beynəlxalq təsisatların tədbirlərinə fəxri qonaq qismində dəvətlər alması bunun əyani təsdiqidir.

***Mübariz ABDULLAYEV***

## MDB məkanında ilk dəfə geniş torpaq islahatı

Ümummilli Lider Heydər Əliyevin aqrar sektorda apardığı islahatlar da həm iqtisadi əhəmiyyət daşıyır, həm də böyük sosial önəm kəsb edirdi. Məlumdur ki, Azərbaycan kənd təsərrüfatının inkişafı baxımından bir sıra üstünlüklərə malik olan ölkədir. Respublikamızda aqrar sektorda tarixən güclü ənənələr formalaşıb, eyni zamanda, ölkəmiz bir sıra istehlak bazarları ilə əhatə olunub. Bundan başqa, ölkənin fəal məşğul əhalisinin təxminən 40 faizi bölgələrdə məskunlaşıb.

Lakin stereotiplər, o cümlədən də torpaq üzərində mövcud mülkiyyət münasibətləri aqrar sektorda da inkişafı əngəlləyirdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda MDB məkanında ilk dəfə geniş torpaq islahatı həyata keçirməklə aqrar sektora, necə deyərlər, yeni nəfəs verdi.

Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixdə imzaladığı "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" müvafiq fərmanla respublikamızda geniş torpaq islahatına başlanıldı. Fərmanda nəzərdə tutulan tədbirlərin reallaşdırılması sayəsində respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək onların əkinəyararlı münbit torpaqları əhaliyə paylandı. İşğal olunmuş rayonlarımız istisna olmaqla ölkəmizdə torpaq payı almaq hüququ olan 870 min ailəyə torpaq payı verildi. Bu, 3 milyon 442 min 778 subyekt demək idi. Azərbaycan vətəndaşlarının heç bir əvəz ödəmədən torpaq mülkiyyətçilərinə çevrilməsi respublikanın kənd təsərrüfatında dönüş yaratdı. Bu amil torpaqlardan daha səmərəli şəkildə istifadə edilməsini şərtləndirdi ki, bu da son nəticədə ölkəmizdə ərzaq məhsulları istehsalının artması ilə nəticələndi.



# Xilaskarlıq missiyası

Azərbaycan xalqının taleyində müstəsna əhəmiyyət kəsb edən günlərdən biri tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrilib.

Məlum olduğu kimi, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı. Ölkə daxilində müxtəlif silahlı qruplaşmaların hakimiyyət uğrunda savaşa çıxması həm siyasi böhrana səbəb olmuş, həm Azərbaycanı müxtəlif xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirmiş, həm də vətəndaşlarla siyasi rəhbərlik arasında kəskin konfrantasiyaların meydana çıxmasını şərtləndirmişdi. Məhz bütün bunların nəticəsi kimi, mövcud ictimai-siyasi xaos daha da dərinləşərək anarxiya həddinə çatmışdı.

Eyni zamanda, o dövrdə AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu proses 1993-cü ilin iyun ayında özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycanı bu təhlükəli vəziyyətdən yalnız böyük dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilərdi. Məhz belə bir zamanda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Parlamentinin sədri seçildi.

Ulu Öndər Heydər Əliyev öz xilaskarlıq missiyası ilə milli dövlətçiliyimizi qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan bir dövlətə çevrildi. Bu səbəblərdən də 15 iyun tarixi haqlı olaraq tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Əlbəttə, ölkəmizdə hökm sürən xaotik və anarxik meyillərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. Məhz o cür mürəkkəb situasiyanın fonunda milli-etnik və subyektlərarası barışmaz ziddiyyətləri aradan qaldırmaq, sosial inteqrasiyanı və onun davamlılığını təmin etmək, xalqla hakimiyyətin kommunikasiyasını və milli ideoloji həmrəyliyi təmin etmək kimi zəruri strateji vəzifələri müvəffəqiyyətlə yerinə yetirən Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübut etdi. Bütün bu hadisələrin təhlili bu qənaətə gəlməyə imkan verir ki, bugünədək əldə etdiyimiz nailiyyətlərin kökündə məhz Qurtuluş məfkurəsinin dayanması tarixi bir gerçəklikdir. Daha dəqiq desək, Qurtuluş məfkurəsi Azərbaycan dövləti və xalqını tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxaran iftixar mənbəyidir.



Beləliklə, bütün bunların qanunauyğun ifadəsi kimi, 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən Heydər Əliyev qısa bir zamanda ümummilli maraqlara xidmət edən və ali prinsiplərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, bütövlüyü və inkişafı təmin etdi. Bundan sonra ölkənin siyasi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Eyni zamanda, vətəndaş cəmiyyətinin qurulması prosesinə start verildi və fərdlərin siyasi həyatda müstəqil inkişafı üçün geniş şərait yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində siyasi sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə, sosial-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi surətdə təkmilləşməsini təmin etmiş oldu.

O dövrdə dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edirdi. Ulu Öndərimizin əsasını qoyduğu praqmatik və balanslaşdırılmış xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı kifayət qədər artdı. Həmin dövrdə həyata keçirilən rasional xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. İlk növbədə 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor qismində çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusu qismində çıxış etməyə başladı.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu balanslaşdırma siyasəti sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoruna çevrildi, eyni zamanda, qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul edildi. Bu isə milli maraqların təmin edilməsi üçün fundamental strateji faktor qismində çıxış etdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Ümummilli Lider Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı, Azərbaycanın ərazi bütövlüyünün tanınması beynəlxalq təşkilatların sənədlərində təsbit olundu. 44 günlük Vətən müharibəsində torpaqlarımzı işğaldan azad edərkən həmin sənədlər hüquqi baza rolunu oynadı.

Bütövlükdə, Heydər Əliyev dühasının bəhrəsi olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz və dönməz etdi. Bütün bu amilləri nəzərə alaraq 1997-ci ilin iyun ayında Milli Məclis 15 iyun tarixini Milli Qurtuluş Günü elan olunması haqqında qərar qəbul edib.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən illər ərzində daha da güclənib, dünyada nüfuzlu dövlətə çevrilib. 2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarımızı azad etdi, işğalçı ordu məğlub oldu. 2023-cü ilin sentyabrında isə bir günlük antiterror tədbirləri nəticəsində Qarabağ erməni separatçılarından tamamilə təmizləndi. Bu qələbələr tariximizə qızıl hərflərlə yazıldı. Təbii ki, bu qələbədə xalq və cəmiyyət olaraq birliyimiz və həmrəyliyimiz də mühüm rol oynadı.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən dövlətinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Ümummilli Liderin qurduğu dünyəvi Azərbaycan dövləti öz tarixinin yüksəlişlə müşayiət olunan ən qüdrətli dövrünü yaşayır. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlətimizin məqsədi Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirməkdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev azad edilmiş torpaqlarda bərpa işlərinin təməlini qoyur, Şuşada Novruz tonqalı alovlandırır, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Bütün bunlar isə Qurtuluş məfkurəsinin bəhrəsidir!



**Sevinc Fətəliyeva,**
**Milli Məclisin deputatı**

# Azərbaycan tarixinin qürur səhifəsi

Tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günündən bizi 32 illik zaman məsafəsi ayırır. Bu 32 ilin hər günü, hər həftəsi, hər ayı müasir müstəqil Azərbaycan Respublikasının tarixinə misilsiz qələbələrlə həkk olunmuşdur. Bu qələbələrlə dolu illərin uğur salnaməsində 2020-ci ilin 27 sentyabrından sonrakı dövrün xüsusi yeri var. Beş il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun yazdığı şanlı Zəfər, ardından 2023-cü ilin sentyabrında suverenliyimizin tam bərpası 1993-cü il 15 İyun - Milli Qurtuluş Günündən başlayan yolun uğurlu nəticəsi idi. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan yeni dövrə qədəm qoydu.

XX əsrdə Azərbaycan iki dəfə müstəqillik əldə etdi - əsrin sonunda dövlət müstəqilliyimizin ikinci dəfə bərpa edilməsindən az sonra Azərbaycanımız böyük faciələrlə, təhlükələrlə üz-üzə qaldı. AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin törətdikləri qanunsuz əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratdı. Həmin dövrün iqtidarını dövlət maraqları deyil, öz şəxsi ambisiyaları düşündürürdü. Ölkədə xaos, anarxiya, özbaşınalıqlar baş alıb gedirdi. Ordu torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğal, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial böhran vəziyyəti daha da kritikləşdiridi.

Bu vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Ümummilli Lider Heydər Əliyevdə gördü. 1993-cü il iyunun 9-da Ümummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi. O, Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Ümummilli Lider Heydər Əliyev yol göstərməklə kifayətlənmədi, çətinliklər içindən keçən o yolu özü işıqlandırdı, özü addımladı, özü inşa etdi.

1993-cü il 15 İyun xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarix Azərbaycan xalqının qaranlıqdan işığa, ümidsizlikdən qurtuluşa doğru atdığı ən möhtəşəm addım oldu. Bu günün arxasında dayanan şəxs isə xalqın inam yeri, sabaha ümid işığı olan, millətin qəlbində əbədiyaşar Liderə çevrilmiş Heydər Əliyev idi. O, sadəcə qayıtmadı. O, xalqı ilə birgə tarixə yön verdi.

Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. Ulu Öndər fəaliyyət göstərdiyi bütün sahələrdə özünü ən yüksək səviyyədə təsdiq etmişdir. Onun hakimiyyətinin hər iki dövrü dövlətinə, xalqına xidmət nümunəsidir. Dahi rəhbər hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək bir-birindən mühüm addımlar atmışdır. Azərbaycançılıq ideologiyasının təbliği, inkişafı Ulu Öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə həyata keçirilən siyasətin ana xəttini təşkil edib. Azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü məhz xilaskarlıq missiyası ilə xarakterizə edilir. 1969-1982-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Prezident İlham Əliyev 2023-cü ilin 10 may tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Şuşadan xalqa müraciətində bu reallıqları xüsusi qeyd etdi ki, Azərbaycan xalqının faciələri Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır. Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu.

Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyətinin bütün mərhələləri xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. 1993-cü il 15 iyun tarixində Azərbaycan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev ilk olaraq ölkədə sabitliyin yaradılmasına diqqət göstərdi. Bildirdi ki, sabitlik olmadan heç bir sosial-iqtisadi layihənin icrasından danışmaq mümkün deyil. Azərbaycan Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində qısa müddətdə sabitlik məkanına çevrildi. 1994-cü ilin 12 may tarixində Ulu Öndərin səyləri nəticəsində Ermənistanla atəşkəs sazişinin imzalanması Azərbaycanın bütün sahələrdə inkişafına yol açdı. Elə həmin ilin 20 sentyabr tarixində Heydər Əliyevin gərgin səyləri nəticəsində xarici ölkələrin nəhəng transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədi kimi önə çıxarıldı. Nizami ordu yaradıldı, real faktlara, tarixi həqiqətlərə söykənərək aparılan təbliğat nəticəsində erməni yalanları ifşa edildi, uğurlu xarici siyasətin nəticəsi olaraq Azərbaycanın müxtəlif dövlətlərlə və təşkilatlarla əlaqələri yüksələn xətlə inkişaf etdirildi.

Dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Bunlardan biri də bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqaz regionunun aparıcı siyasi təşkilatı olan, ölkədə cərəyan edən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Ulu Öndər Heydər Əliyevin partiyaya Sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb oldu. Partiyanın yaradılmasından 7 ay sonra Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan tarixinin yeni mərhələsinin başlanğıcı kimi çağdaş tariximizdə yer aldı. Yeni Azərbaycan Partiyası ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi yaranmışdı. Yeni Azərbaycan Partiyasının yaranması bütün Azərbaycanda böyük əks-səda yaratdı. YAP qısa zamanda iqtidar partiyasına çevrildi. Yarandığı gündən tutduğu yola sadiqlik nümayiş etdirən Yeni Azərbaycan Partiyasına bu gün də xalqın inamı və etimadı böyükdür. Dahi şəxsiyyət Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyada təmsil olunmaq böyük şərəf və məsuliyyətdir. YAP-ın 2021-ci ildə keçirilən Zəfər ruhlu VII Qurultayında yeni tərkibin formalaşdırılması, yeni Nizamnamənin qəbulu, eyni zamanda, Prezident, YAP Sədri İlham Əliyevin tapşırığına uyğun olaraq həmin ilin sonuna qədər yeni Proqramın hazırlanması və qəbulu partiyanın yeni hədəfləri uğurla reallığa çevirməsini təmin edir.

Ulu Öndərin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında layiqli yerini tutur, milli maraqlarımız bütün səviyyələrdə qətiyyətlə qorunur. Azərbaycan qüdrətli, öz prinsipial mövqeyi olan, müstəqil siyasət yeridən ölkə kimi tanınır. Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş Azərbaycan idi. Bu arzular 27 ildən sonra reallaşdı. 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində müasir müstəqil, qalib, bütövləşən Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm uğurlar gözləyir.



**Aynur Sofiyeva,**
**YAP İdarə Heyətinin üzvü,**
**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsi**
**sədrinin müavini**

# Milli Qurtuluş Günü - müasir dövlətçiliyimizin dönüş nöqtəsi

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müasir dövlətçilik ideyaları müstəqil Azərbaycanın milli inkişaf və rifah yolunu dəqiq şəkildə müəyyən etmişdir. Ulu Öndər xalqımızı zamanın ən çətin və taleyüklü sınaqlardan uğurla çıxararaq ölkədə sabitlik, tərəqqi və davamlı inkişafın möhkəm təməllərini yaratmışdır. Onun siyasi uzaqgörənliyi, milli maraqlara sadiqliyi və misilsiz xidmətləri tariximizdə silinməz izlər qoyaraq gələcək nəsillərə örnək olmuşdur.



1990-cı illərin əvvəlləri müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın tarixində ən mürəkkəb, ziddiyyətli və faciəvi bir dönəm kimi yadda qalmışdır. Bu mərhələ xaos, iqtisadi tənəzzül, silahlı toqquşmalar və xarici təhdidlərin hökm sürdüyü dərin böhranla müşayiət olunmuşdur. Respublikada siyasi rəhbərliyin səriştəsizliyi fonunda dövlətçilik ənənələrinin yetərincə formalaşmaması, həmçinin bölgələrdə separatizmin getdikcə güclənməsi kimi amillər ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə ağır bir şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev Bakıya dəvət olundu və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu əlamətdar hadisə parlamentin 27 iyun 1997-ci il tarixli qərarı ilə Milli Qurtuluş Günü kimi qeyd olunur.

Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri sayəsində qısa müddət ərzində ölkəmizdə sabitlik bərqərar edildi. Ən vacib addımlardan biri 1994-cü il mayın 12-də Ermənistanla imzalanmış atəşkəs sazişi oldu. Bu sənəd müharibənin dondurulması və danışıqlar prosesinə start verilməsi baxımından mühüm mərhələ idi. Atəşkəs həm də ölkənin gələcək inkişafına zəmin yaradılması baxımından həyati əhəmiyyət daşıyırdı.

Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunması və beynəlxalq aləmdə nüfuzunun artmasında mühüm rol oynadı. Bu müqavilə vasitəsilə ölkənin zəngin neft ehtiyatları dünya enerji bazarına çıxarıldı, çoxsaylı beynəlxalq şirkətlərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan kimi strateji layihələr reallaşdırıldı. Heydər Əliyevin enerji strategiyası təkcə iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət kəsb edən bir istiqamətə çevrildi. Azərbaycan regionun aparıcı enerji ixracatçısına çevrilərək Avropanın enerji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynadı.

Ulu Öndər ordu quruculuğunu dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən etmişdi. Onun rəhbərliyi ilə hərbi sistem köklü şəkildə yenidən təşkil olundu, peşəkar, intizamlı və milli ruhda formalaşan silahlı qüvvələrin əsası qoyuldu. Məhz bu ordu sonrakı illərdə torpaqlarımızın işğaldan azad olunmasında həlledici rol oynadı.

1995-ci il noyabrın 12-də Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə ümumxalq səsverməsi (referendum) nəticəsində Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Bu Konstitusiya hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu baxımından möhkəm təməl rolunu oynadı. Qanunverici, icraedici və məhkəmə hakimiyyəti arasında səlahiyyət bölgüsü, insan hüquqlarının qorunması və demokratik institutların bərqərar olunması bu sənəddə əsas prinsiplər kimi təsbit edildi.

Heydər Əliyev sosial dövlət konsepsiyasını həyata keçirərək xüsusilə ağır vəziyyətdə olan qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət ayırdı. Sosial təminat sistemində islahatlar həyata keçirildi, pensiya və əməkhaqqı sistemləri yenidən quruldu. Bu dövr həm də aztəminatlı ailələrin müdafiə mexanizmlərinin yaradılması baxımından mühüm idi.

Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik konsepsiyasında təhsil və səhiyyə sistemi strateji prioritetlərdən biri idi. O, bu sahələrin inkişafını xalqın rifahı və dövlətin gələcəyi üçün əsas amil kimi qiymətləndirirdi. Təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində ölkənin müxtəlif bölgələrində yüzlərlə yeni məktəb binaları inşa olundu, mövcud məktəblər əsaslı şəkildə təmir edildi. Müəllimlərin peşəkarlığının artırılması, dərsliklərin keyfiyyətinin yüksəldilməsi və ali təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Xüsusilə ali təhsil müəssisələrinin xarici universitetlərlə əməkdaşlığa cəlb olunması, tələbələrin beynəlxalq mübadilə proqramlarına qoşulması Azərbaycanın qlobal təhsil məkanında tanınmasına şərait yaratdı.

Eyni zamanda, səhiyyə sistemi də Ulu Öndərin diqqət mərkəzində idi. Onun rəhbərliyi ilə səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində irimiqyaslı layihələr reallaşdırıldı. Xəstəxanalar müasir tibbi avadanlıqlarla təchiz olundu, kadr hazırlığı sahəsində ciddi addımlar atıldı. Əhalinin sağlamlığının qorunması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Profilaktik tədbirlərin genişləndirilməsi, regionlarda tibb müəssisələrinin sayının artırılması və sosial cəhətdən həssas təbəqələrin tibbi xidmətə çıxış imkanlarının genişləndirilməsi səhiyyə sahəsində aparılan siyasətin əsas tərkib hissəsi oldu. Heydər Əliyev üçün insan amili və onun sağlamlığı ən ali dəyər idi.

Ulu Öndər Heydər Əliyev hər zaman gənclərı dövlətin gələcəyi və aparıcı qüvvəsi kimi dəyərləndirirdi. O, gənclərin intellektual, mənəvi və fiziki inkişafını təmin etmək üçün ardıcıl və sistemli siyasət həyata keçirirdi. Məhz Ümummilli Liderin təşəbbüsü ilə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması gənclər siyasətinin dövlət səviyyəsində formalaşmasında mühüm mərhələ oldu. Bu qərar həm də gənclərin cəmiyyətin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakının təmin olunmasına xidmət edirdi. O dövrdə gənclərin dövlət quruculuğunda fəal mövqe tutmaları üçün müxtəlif proqramlar həyata keçirildi. Həmçinin gənclərin məşğulluğu, təhsili və beynəlxalq təcrübə qazanması üçün xüsusi layihələr hazırlandı.

Bununla yanaşı, idmanın inkişafı da Heydər Əliyev siyasətinin mühüm istiqamətlərindən biri idi. O, idmanı təkcə fiziki inkişaf vasitəsi deyil, həm də milli təbliğatın və beynəlxalq arenada tanıtımın effektiv vasitəsi kimi qiymətləndirirdi. İdman infrastrukturunun müasirləşdirilməsi məqsədilə yeni stadionlar, idman və olimpiya kompleksləri tikildi. Bu sahədə görülən tədbirlər nəticəsində Azərbaycan idmançıları beynəlxalq yarışlarda uğurlu nəticələr əldə etməyə başladılar. Gənclərə idmana maraq göstərmək, sağlam həyat tərzini təbliğ etmək üçün geniş imkanlar yaradıldı. Heydər Əliyevin bu sahəyə verdiyi önəm sayəsində ölkəmiz qısa müddət ərzində idman ölkəsinə çevrildi. Bu uğurlar, eyni zamanda, milli həmrəyliyin, vətənpərvərliyin və Azərbaycan brendinin dünya miqyasında tanıdılmasının əsaslarından biri oldu.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi prinsipial və çoxşaxəli xarici siyasət nəticəsində Azərbaycan qlobal miqyasda özünəməxsus mövqeyi olan dövlətlərdən birinə çevrildi. BMT, ATƏT, Qoşulmama Hərəkatı və digər nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq imkanları genişləndirildi, qonşu və region ölkələri ilə balanslaşdırılmış münasibətlər quruldu. Bu siyasət ölkənin beynəlxalq imicini formalaşdırdı və dövlət suverenliyini möhkəmləndirdi.

15 İyundan başlanan qurtuluş yolu zamanla möhkəm xalq-iqtidar birliyinə, davamlı inkişafla müşayiət olunan müstəqil və qüdrətli dövlət modelinə çevrildi. Heydər Əliyevin siyasi iradəsi ilə atılan bütün bu addımlar gələcək Zəfər yolunun bünövrəsini təşkil etdi. Xalqın etimadını qazanan bu strateji xətt ölkənin taleyini həll edən dönüş nöqtəsinə çevrildi.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev müstəqil dövlətçiliyin inkişafını daha yüksək mərhələyə çatdırdı. Onun rəhbərliyi ilə Azərbaycan güclü iqtisadiyyata, müasir orduya və beynəlxalq nüfuza malik dövlətə çevrildi. Bu liderliyin ən parlaq nəticəsi isə 2020-ci il Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası oldu.

Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanın yeni tarixində ərazi bütövlüyünü təmin etmiş və post-münaqişə dövründə yenidənqurma proseslərinə start verilmişdir. Bu faktorlar milli qurtuluşun ideya və amal baxımından məntiqi davamı kimi dəyərləndirilir.

Müstəqil və qüdrətli dövlətin ideoloji və strateji təməlinin qoyulduğu 15 İyun - Milli Qurtuluş Günü tariximizin ən parlaq səhifələrindən biridir və gələcək nəsillərə dövlətçiliyin, liderliyin və xalq-iqtidar birliyinin rəmzi kimi ötürülür. Məhz bu təməllər üzərində qurulan Azərbaycan misilsiz uğurları qətiyyətlə davam etdirir.



**Elmar Əhmədov,**
**YAP Salyan rayon təşkilatının sədri**

# Qurtuluşdan Zəfərə

Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olması, dərin tarixi dövlətçilik ənənələrinə sadiq qüdrətli bir dövlətə çevrilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü il iyun ayının 15-i həm Azərbaycan dövləti, həm də dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar üçün şərəfli bir tarixdir. Çünki məhz bu tarixdə bir əsrdə ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan dövlətimiz anarxiyadan, daxili çəkişmələrdən, xaosdan qurtularaq öz əbədi müstəqilliyinə qovuşdu.

İndiki geosiyası reallıqlarla paralel müqayisələr apardıqda Milli Qurtuluşumuzun dövlətimiz üçün hansı əhəmiyyəti daşıması daha aydın şəkildə görünür. Dünyanın bir çox ölkələrində eyni mənzərəyə şahidlik edirik - daxili çəkişmələr, siyasi böhranlar, hakimiyyət davası, hətta vətəndaş müharibələri... Bütün bu kataklizmlər nəticə etibarı ilə ən böyük zərəri məhz həmin dövlətə, dövlətçiliyə vurur, təməllərini sarsıdır, ciddi təhdid və təhlükə yaradır.

32 il bundan əvvəl Azərbaycanda da eyni mənzərə hökm sürürdü. XX əsrdə ikinci dəfə müstəqliyini qazanan Azərbaycan qısa zaman sonra onu itirmək təhlükəsi yaşayırdı. 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin naşı, yarıtmaz siyasəti nəticəsində vəziyyət böhran həddinə çatmışdı. Yeni yaradılmış müstəqil dövlətdə hakimiyyəti liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum, vəziyyətdən çıxış yolu tapmaqda aciz insanlar qəsb etmişdi. Onlar baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Xalq isə qurtuluşunu, xilasını Azərbaycanın böyük oğlu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü.

Dövlətin belə bir ağır durumda olduğunu görən Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da xalqın təkidli dəvətini qəbul edib Bakıya gəldi. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın çağırışına səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı. Onun gəlişi ilə bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın təməlləri qoyuldu.

Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, Vətəninə həsr etmiş müdrik dövlət xadimi Ulu Öndər Heydər Əliyevin adı tariximizə həm də müstəqilliyimizin memarı, yeni Azərbaycanın banisi kimi yazılmışdır. Heydər Əliyev deyirdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır".

Ulu Öndər bütün həyatını Azərbaycanın çiçəklənməsinə, dövlətimizin nüfuzunun beynəlxalq aləmdə artmasına, xalqın rifahının yaxşılaşdırılmasına həsr etdi. Onun ən böyük arzusu isə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, dədə-baba yurdlarımızın düşmən tapdağından azad edilməsi idi. Bunun üçün isə ölkədə nizami ordunun yaradılması ən ümdə şərtlərdən biri idi. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır.

Ulu Öndərin arzuları bu gün çin olur - Heydər Əliyev məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla demişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Dahi Liderin bu arzusu 27 ildən sonra reallaşdı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirdi. Cəmi qırx dörd gün ərzində otuz illik həsrətə son qoyuldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Zəfər çalaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin olundu.

Xalqımız artıq 4-cü ildir ki Milli Qurtuluş Gününü qalib xalq kimi qələbə ovqatı ilə qeyd edir. Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə üçrəngli şanlı bayrağımızın əzəmətlə dalğalanmasını izləmək hər bir azərbaycanlı üçün böyük fəxarətdir.

Bu şanlı Qələbə bizə təkcə tarixi torpaqlarımızı qazandırmadı - xalqın inamını, vətənpərvərlik ruhunu daha da artırdı. Böyük Zəfərdən sonra Azərbaycan dövlətinin müəyyənləşdirdiyi prioritetlərdən biri də keçmiş qaçqın və məcburi köçkünlərin öz dədə-baba yurdlarına layiqli qayıdışının təmin edilməsidir. 44 günlük Vətən müharibəsindən qısa bir müddət keçməsinə baxmayaraq, dövlətimizin böyük işlər görməsi, mənfur düşmən tərəfindən darmadağın edilən yurdlarımızın dirçəldilməsi istiqamətində əsaslı addımlar atması Azərbaycanın gücünü, əzmini bir daha ortaya qoyur. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə yeni layihələrin təməlini qoyur, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası ölkəmizə bundan sonra da böyük qələbələr, yeni-yeni uğurlar qazandıracaq.



***Nicat DİLQƏMLİ***

# 150 ilə sözardı




Tanınmış yazıçı, jurnalist, tarixçi, Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədlinin Azərbaycan mətbuatının yaranmasının 150 illiyi münasibətilə kitabı dərc olunub. Kitab milli mətbuatımızın inkişafı tarixinə həsr olunub - "Yeni Azərbaycan" qəzeti olaraq müəllifi təbrik edirik. Düşündük ki, "150 ilə sözardı"na ən yaxşı təbrik elə müəllifin sözardıdır...

Siz bu səhifədəki şəklə diqqətlə baxın, lütfən, mənim üçün çox əzizdir. Onu səhərə yaxın, dan yeri sökülməsinə az qalmış o zaman çalışdığım "Yeni Azərbaycan"dakı dostlarımdan kimsə təsadüfən çəkmişdi. Ağlımdan keçməzdi ki, otuz ildə yazdıqlarımın, danışdıqlarımın müəyyən bir hissəsi nə zamansa sıralanıb kitab olacaq və bu şəklin işığında xatirələrimi silkələməklə həmin kitaba yekun vurmağa çalışacağam.

Mübaliğəsiz deyə bilərəm ki, biz bu şəkil çəkilən günü sutkanın bütün saatını işləmişdik; səhər çağı qəzetin xüsusi nömrəsinin planlaşdırmasını keçirdik, daha sonra öhdəmizə düşən mövzular üzrə məqalələri yazdıq, günün ikinci yarısından redaktəyə və onunla paralel şəkildə səhifələrin tərtibatına başladıq, şəkilləri dəqiqləşdirdik, gecəyarıya qədər səhifələrin tərtibatı ilə bərabər, ikinci növbə işləyən korrektorlarımız işə başladı, daha sonra səhifələri plyonkaya verib ardıcıllıqla sıraladıq, yenidən tutuşdurub gözdən keçirdik, hər şeyin qaydasında getdiyinə əmin olduqdan sonra mətbəəyə yollandıq. O zaman "Azərbaycan" nəşriyyatına rəngli qəzet çap etdirmək texnologiyası hələ gəlmədiyindən əvvəlcədən planlaşdırdığımız kimi, üz tutduq mikrorayonda yerləşən rəngli qəzet çap etmək imkanı olan yeganə özəl mətbəəyə. Qəzetin xüsusi buraxılışının tam rəngli çıxmasına qərar vermişdik.

Çap maşını işə düşdü, barabanlar sürətlə fırlandıqca adamı qeyri-adi hisslər bürüyürdü. Bir neçə dəqiqə sonra bütün günü davam edən gərgin əməyimizin bəhrəsi olan qəzet göründü. Onu ilk dəfə əlimə götürəndə qeyri-ixtiyari məni gülmək tutdu. Bu cümlədə "məni gülmək tutdu" yerinə "üzümə təbəssüm qondu" da yaza bilərdim, lakin həmin vaxt keçirdiyim hissləri ifadə etmək baxımından bu, çox süni görünərdi, çünki həddindən artıq sevinmişdim. Təkcə mən yox, bütün dostlarım, hətta mətbəənin fəhlələri də sevinirdilər. Biz qəzeti necə görmək istəyirdiksə, necə hazırlamışdıqsa, eləcə də qarşımızda dayanmışdı. Artıq dan yeri sökülmüşdü və məhz həmin vaxtkı duyğularımın əks olunduğu bu təsadüfi foto indi mənə yaddaşımı təzələmək üçün ipucu verir. Həmin gün işimiz mətbəə ilə yekunlaşmadı, bütün tirajı yük maşınına yığıb yenidən "Azərbaycan" nəşriyyatına qəzetlərin paylanış məntəqəsinə gəldik. Tələsmək lazım idi, çünki qəzetlərin bölgüsünü aparan yayım firmaları işlərini yekunlaşdırıb bizim yolumuzu gözləyirdilər. Nəşriyyatın arxasında yerləşən məntəqəyə çatan kimi qəzet bağlamalarını çiynimizə götürüb müxtəlif yayım firmalarının yerləşdiyi mərtəbələrə "daraşdıq". Bağlamaları bölgü üzrə təhvil verib qaimələri imzalatdırdıqdan sonra artıq səhərin açıldığını fərq elədik. Dostlarımdan biri zarafatla "bir az da gözləsək, gedib köşkdən qəzet alardıq" dedi.

Biz həmin gün sutkanın bütün saatını işlədik. Yorulduqmu? Xeyr! Axı heç də hər zaman qəzetimizin xüsusi buraxılışı çıxmırdı. Biz də ona xüsusi hazırlaşmışdıq, ürəkdən və sevərək işləmişdik və bu keyfiyyətin yavaş-yavaş peşəkar vərdişə, daha sonra isə həyat tərzinə çevriləcəyini sonralar, lap sonralar hiss etməyə başladıq. Hansı yazını yazdıqsa, hansı işin qulpundan yapışdıqsa, onu ürəkdən və sevərək etdik. Heç vaxt da "yoruldum" demədik. İllərin zəhməti bizi həmişə alın tərinə qarışmış təbəssümlə mükafatlandırdı və biz də taleyin qisməti ilə barışdıq, işimizlə, imzamızla fəxr elədik, qürurlandıq.

Jurnalist hər gün işə gələndə yeni səhifədən, təzə sətirdən böyük hərflə başlamağa məhkumdur, başqa peşələrdə belə şey yoxdur. Yaxşı jurnalist adını daşıyan şəxs şairdən, yazıçıdan, rəssamdan, bəstəkardan fərqli olaraq, yaxşı olduğunu hər gün yenidən sübut etmək üçün çalışır. Heç bir jurnalist dünənin reportajının və ya məqaləsinin, eksklüziv xəbərinin kölgəsində qala bilmir, hər gün təzə xəbər, yeni fikir gözləyən cəmiyyət buna imkan vermir. Hər gün yenidən doğulmaq, hər gün yaxşı olduğunu bir daha sübut edərək ictimai etimadı bir az da möhkəmləndirmək - budur bizim peşənin özəlliyi.

Əziz oxucu, 150 ilin söhbətini bir kitaba sığışdırmağın mümkünsüz olduğunu sübut



etməyə gərək yoxdur. Yuxarıda təsadüfən xatırlatmadım ki, otuz ildə yazdıqlarımın, danışdıqlarımın yalnız müəyyən bir qismi bu kitabda cəmlənib, çünki hər yazılan söz kitaba çevrilmir, hər söz kitab olmaq üçün yazılmır. Bu kitabda milli mətbuatımızın fədailərinin irsinə istinad edərək tarixdən bugünümüzə boylanmağa çalışdıq, texnologiyanın inkişafı ilə amansız rəqibləri artdıqca artan jurnalistikanın gələcəyi haqqında fikirlərimizi bölüşdük. Düşünürük ki, informasiyanın daha sürətlə ötürülməsini təmin edən texnoloji tərəqqinin fikrin ifadə formalarında inqilabi dəyişikliklər yaratması jurnalistikanı küncə sıxışdırmır, əksinə, onun müasir tələblərə cavab verməsi üçün yeni üfüqlər açır. Hər halda, insanın ən ali keyfiyyəti olan düşünmə bacarığını süni intellektə güzəştə gedəcəyini düşünməyin özü inanılmaz dərəcədə qəribə və absurd səslənir. İnsan düşünürsə, deməli, o nəsə demək istəyir, deməli, o hansısa fikrin daşıyıcısıdır, onun hiss və həyəcanlarını, məntiqi mühakimələrini, yəni özünün daxili dünyasını sözlə ifadə etməyə ehtiyacı var və həmişə də olacaq. Fikrin ifadə formaları isə zamanın rəhninə bağlıdır; bu, kağız üzərində sıralanmış qəzet sütunları da ola bilər, veb-saytların ildırım sürəti ilə yenilənən xəbər lenti də və ya indi təsəvvür etməyimiz mümkünsüz görünən başqa bir texnoloji fenomen də. Hər nə olur olsun, bunların hamısı yalnız forma məsələləridir. Məzmunu isə özünün düşünmə bacarığını kimsəyə güzəştə getməyəcək insan yaradır. Düşünərək müəyyən qənaətə gəlmək üçün insanın ilk növbədə balanslı, obyektiv və qərəzsiz informasiyaya olan tələbatı ödənməlidir. Başlıca məqsədi həqiqəti axtarmaq olan jurnalistikadan savayı, bu tələbatı ödəyəcək başqa bir fəaliyyət sahəsi, başqa bir peşə yoxdur. Bu baxımdan, "jurnalistika tək bu günün deyil, gələcəyin peşəsidir" desək, yanılmarıq. Biz milli mətbuatımızın 150 illiyinə işıq tutmağa çalışdığımız söhbətimizdə jurnalistikanın zəngin tarixini xatırladaraq onun həm də gələcəyin peşəsi olacağına əminliyimizi də bölüşmək istərdik.

Elə bu əminliklə də söhbəti çox da uzatmadan gəlin bir daha qayıdaq sözümüzün əvvəlinə. Adətən, müəlliflər kitablarında məxsusi olaraq çəkdirdikləri təzə şəkillərinin verilməsini istəyirlər. Mənsə uzun illərin o tayından gülərək boylanan, bütün sutkanı işlədikdən sonra "yoruldum" demədən gələcək haqqında ümidli planlar qurmağa davam edən bu gəncin şəklinin getməsini istədim. Onun dağınıq saç düzümündən, gözündəki yumru halqalı eynəyindən, bir də sadəlövh təbəssümündən ötrü çox darıxmışam... Yorulduqmu? Xeyr! İnsan ürəkdən bağlandığı və sevərək gördüyü işdən yalnız zövq ala bilər. Sabah həmişə olduğu kimi yeni səhifədən, təzə sətirdən başlayacağıq!

# Qərbi azərbaycanlıların qayıdışına növbəti beynəlxalq dəstək

## Qərbi Azərbaycan İcması TÜRKPA-ya təşəkkür edib

*Nardar BAYRAMLI*

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışına beynəlxalq müstəvidə dəstək davam edir. TÜRKPA-nın iyunun 12-də Astana şəhərində "Türk Əsri: Parlament diplomatiyasının rolu" mövzusunda keçirilmiş 14-cü iclasının yekun Astana Bəyannaməsində Qərbi azərbaycanlıların qayıdışı məsələsi də əksini tapıb. Sənəddə Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların taleyindən dərin narahatlıq ifadə edilib və onların dinc, təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıtmaq hüququ dəstəklənib.

Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada qeyd olunub ki, bu qərar insan hüquqlarına, ədalətə və sülhə xidmət edir: "Qərbi Azərbaycan İcması prinsipial, ardıcıl və ədalətli mövqeyinə görə TÜRKPA-ya və onun üzvü olan parlamentlərə təşəkkürünü bildirir".

**Qayıdış Qərbi azərbaycanlıların fundamental hüququdur**

Ümumiyyətlə, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtması onların fundamental hüququdur. Bu məsələ dövlətimiz tərəfindən müxtəlif beynəlxalq platformalarda daim gündəmə gətirilir. Eləcə də, Qərbi Azərbaycan İcması mütəmadi olaraq bir sıra beynəlxalq təşkilatlara müraciətlər edir. Bunların sırasında BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara da müraciətlər var. Hətta bəzi müraciətlər BMT-nin sənədi kimi də yayılıb. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında da əksini tapan məqamlardan biri məhz qayıdışla bağlı beynəlxalq hüquqi çərçivə və zəmanətdir. Sənəddə indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir. Bu məqsədlə, İcma Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhdəliyi kimi təsbit olunmasına çalışır. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb.

**Qayıdış hüququ digər beynəlxalq təşkilatların sənədlərində də əksini tapır**

Qeyd edək ki, TÜRKPA ilə yanaşı digər beynəlxalq təşkilatlar da bu mövzunu gündəmə gətirir. Məsələn, Asiya Parlament Assambleyasının bu il 17-21 fevral tarixlərində Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənədində Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına və Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə olunub. Aprel ayında isə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Özbəkistanda keçirilən dördüncü konfrasının yekunu olaraq qəbul edilmiş Daşkənd Bəyannaməsində Qərbi azərbaycanlıların qayıdışı məsələsinə yer verilib. Eyni zamanda, aprel ayında keçirilmiş Antalya Diplomatiya Forumu çərçivəsində "Qlobal idarəetmədə parlament diplomatiyası" mövzusunda baş tutan dəyirmi masada da Qərbi Azərbaycan həqiqətləri müzakirə edilib. Əlbəttə, bu yöndə faktların sayını artırmaq da olar. Bu baxımdan, Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da böyük əhəmiyyət kəsb edir. Bütün bunlar göstərir ki, Qərbi azərbaycanlıların qayıdış hüququ təmin edilənə qədər bu istiqamətdə beynəlxalq fəaliyyət sistemli şəkildə davam etdiriləcək.

# Gənclik müasir Azərbaycanın gələcəyidir...

Hər bir dövlətin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri də səmərəli gənclər siyasətidir. Demokratiya yolunda inamla addımlayan, dinamik inkişafa və əsaslı ictimai-siyasi sabitliyə malik olan, beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınan Azərbaycanda da uğurlu gənclər siyasəti həyata keçirilir. Milli ruhda böyüyən Azərbaycan gəncliyi də ölkəmizin strateji hədəflərinə doğru irəliləməsi prosesində fəal iştirakçı kimi yer alır, iqtisadi, siyasi və sosial həyatda mühüm rol oynayır.

Azərbaycanda gəncliyə dövlət tərəfindən diqqət və qayğının göstərilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderimizin həm sovet Azərbaycanına, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə gənclər siyasəti dövlətin prioritet istiqamətlərindən birini təşkil edib. Əslində, Azərbaycanda bu gün həyata keçirilən və yüksək nəticələr verən gənclər siyasətinin əsası ötən əsrin yetmişinci illərində qoyulub desək, yanılmarıq. Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan gənclərinin öz potensialını həyata keçirmələri üçün münbit şərait yaradıldı. Respublikanın inkişafı üçün dərin elmi savada və müxtəlif ixtisaslara yiyələnmiş kadrların vacib olduğunu nəzərə alan Ulu Öndər bu cür kadrların hazırlanması məsələsinə xüsusi diqqət ayırır, göstəriş və tapşırıqlar verirdi. Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində gənclərimiz keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində oxumağa göndərilirdi.

Heydər Əliyev gəncliyin irəli getməsi üçün addımlar atmaqla kifayətlənmir, eyni zamanda, yeni nəslin müstəqil ölkəyə layiq tərbiyələnməsi və oxuması üçün təhsildə və mənəvi sferada islahatların həyata keçirilməsinə rəhbərlik edirdi. Məhz həmin ərəfədə gəncliyin mənəvi yetkinlik qaynağı olan azərbaycançılıq ideologiyası, düşüncələrə hakim kəsildi.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

## Yeni mərhələnin başlanğıcı...

1999-cu ilin iyulunda Ulu Öndər Heydər Əliyev tərəfindən "Dövlət gənclər siyasəti haqqında" fərman imzalandı. Həmin fərmana uyğun olaraq təsdiqlənmiş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri öz əksini tapdı.

Bu qanun ölkəmizdə gənclərin inkişafında, gənclərin dövlətlə münasibətlərinin formalaşmasında yeni bir mərhələnin başlanğıcını qoydu. Qeyd etdiyimiz kimi, Ulu Öndərin müəyyənləşdirdiyi gənclər siyasətinin əsasında azərbaycançılıq ideologiyasından qaynaqlanan dövlətin inkişafı, xalqımızın rifahının yüksəldilməsi yönündə fəaliyyət və tolerantlığın inkişaf etdirilməsi dayanır. Qanunda göstərilir ki, gənclər siyasəti - gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir. Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etməkdir. Digər tərəfdən, dövlət gənclər siyasətinin əsas prinsiplərini gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosail-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması təşkil edir.



## "Tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"

Azərbaycan Respublikasının gənclər siyasətinin prioritetlərindən biri budur ki, gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Ulu Öndər Heydər Əliyev deyirdi: "Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt Vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

## Ölkəmizin ən böyük kapitalı!

Müasir Azərbaycan gəncliyi inkişafının yeni mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Bu gün ölkəmizdə gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, gənclərin məşğulluğunun təmin edilməsi, gənc ailələrə dövlət yadımı, o cümlədən gənclər təşkilatlarına dövlət yardımı bu yöndəki işlərin keyfiyyətindən xəbər verən amillərdir.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərir. Hər il xarici ölkələrdə təhsil almağa göndərilən gənclərin sayı artır. Bu da Azərbaycanda intellekt kapitalının inkişafına xidmətin ən mühüm amillərindəndir.

***Sahib***

# Ukraynaya “mesaj”...

## Vaşinqton müharibəni bitirmək üçün hərəkətə keçdi

Rusiya - Ukrayna müharibəsinin inkişaf trayektoriyası günü-gündən mürəkkəbləşməkdədir. Bəzi politexnoloqlar böyük dövlətlərin, xüsusilə də, Qərb koalisiyasının müharibəyə müdaxilə imkanlarını artıq fərqli məcrada qiymətləndirirlər. Başqa sözlə, müharibəyə münasibət artıq dəyişmək üzrədir və bu, bəzi kontekstlərdə daha açıq görünür. Məsələn, Tramp administrasiyası Ukraynada müharibəyə son vermək qərarlı görünür - rəsmi Vaşinqtonun son zamanlarda müharibə ilə bağlı davranışları və ritorikası da bunu sübut edir. Dövləti təmsil edən bir çox şəxslər açıq şəkildə bəyan edirlər ki, Rusiya ilə Ukrayna arasında müharibənin davam etməsi Vaşinqtonun maraqlarına uyğun deyil. ABŞ indiki mərhələdə Arktika, Asiya-Sakit okean, Cənub-Şərqi Asiya və Yaxın Şərqlə bağlı planlara daha çox üstünlük vermiş kimi görünür. Ağ Evin Ukrayna ilə bağlı son qərarları bunu deməyə əsas verir. Belə ki, Pentaqon rəhbəri Pit Heqset Konqresdə dinləmələr zamanı bildirib ki, Ağ Ev Ukraynaya hərbi yardımın məbləğini növbəti müdafiə büdcəsində azaltmağı planlaşdırır. Heqset qeyd edib ki, Tramp administrasiyası Rusiya-Ukayna münaqişəsinin danışıqlar və sülh yolu ilə nizamlanmasının tərəfdarıdır. Eyni zamanda Vaşinqton Ukraynaya PUA-ları zərərsizləşdirmək üçün nəzərdə tutulan raketlərin tədarükünü də dayandırıb. Ukrayna prezidenti Volodimir Zelenski “ABC News”- a müsahibəsində deyib ki, Bayden administrasiyası dövründə Vaşinqton ilə Kiyev arasında Rusiyanın PUA hücumlarına qarşı mübarizə aparmaq üçün 20 min raketin tədarükü barədə razılıq əldə olunmuşdu, lakin raketlər öz ünvanına çatmayıb və Yaxın Şərqə göndərilib: “Biz ABŞ-ın əvvəlki administrasiyası ilə razılaşdıq ki, “Şahidlər”lə mübarizə aparmaq üçün Ukraynaya 20 min raket tədarük edilsin. Bu, ucuz və xüsusi texnologiya idi. Biz onlara güvənirdik. Lakin bu gün səhər müdafiə nazirim mənə dedi ki, ABŞ raketləri Yaxın Şərqə göndərib”, - deyə Zelenski vurğulayıb. Analitiklər hesab edirlər ki, Trampın bu siyasi qərarları Ukraynanı Rusiyanın qarşısında ağır duruma sala bilər.



### Trampın səbri tükənib

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Tramp administrasiyasının Ukraynaya hərbi yardımı dayandırması gözlənilən idi. “Ukraynaya tədarük edilməsi üçün nəzərdə tutulan raketlərin Yaxın Şərqə göndərilməsi həm Aİ-yə, həm də Kiyevin özünə ciddi siyasi mesajdır. Bu onu göstərir ki, Tramp artıq sözdə deyil, əməldə öz mövqeyini nümayiş etdirir. Aİ-nin liderləri ümid edirdilər ki, Trampın Ukrayna məsələsində mövqeyinə təsir edəcəklər və öz məqsədlərinə nail olacaqlar. Amma Trampın son addımı onları məyus etdi. ABŞ prezidenti əvvəl Ukrayna ilə bağlı mövqeyini sözdə çatdırırdısa, indi isə əməli addımlar atmaqla mövqeyində nə dərəcədə ciddi olduğunu nümayiş etdirir,” -deyə A.Nərimanlı vurğulayıb. O qeyd edib ki, Ağ Evin rəhbərinin əsas məqsədi Rusiya-Ukrayna müharibəsini dayandırmaq və iki ölkə arasında atəşkəs və ya sülh sazişinin imzalanmasına nail olmaqdır: “O, öz məqsədinə nail olmaq üçün həm Ukraynaya, həm də Rusiyaya təzyiqlər edir. Düzdür, Trampın mövqeyi Kremlin mövqeyinə yaxın kimi dəyərləndirilir. Bu da onun geosiyasi maraqlarından qaynaqlanır. Trampın əsas hədəflərindən biri Rusiyanı Çindən uzaqlaşdırmaq və Çinə qarşı mübarizədə Moskvadan istifadə etməkdir. Hazırkı administrasiya Rusiyaya qarşı sərt tədbirlər görməsə də, Moskvanı Ukrayna ilə atəşkəsə məcbur etmək üçün müəyyən planları var”.

### ABŞ-ın əsas hədəfi...

Ekspert əlavə edib ki, Ukrayna zəif bənd olaraq istifadə olunur: “Bu münaqişədə kimin nə qədər itirəcəyi ABŞ-ı maraqlandırmır, Vaşinqtonun burada başlıca marağı öz hədəflərinə çatmaqdır. Önümüzdəki dövrlərdə Tramp administrasiyasının Ukrayna ilə bağlı növbəti addımlarının da şahidi ola bilərik. Onu da qeyd edim ki, Trampın Ukraynaya təzyiqləri həm də dolayısı ilə Aİ-yə tərəf istiqamətlənib. Çünki Avropa liderləri Ukraynanı Rusiya ilə müharibəni davam etdirməyə sövq edirlər. Bu da Trampın geosiyasi maraqları ilə ziddiyyət təşkil edir”.



### Aİ öz təhlükəsizliyini təmin etmək iqtidarındadır?

A.Nərimanlının sözlərinə görə, Trampın son addımları Aİ-nin təhlükəsizlik problemlərini ortaya çıxarır. “Bu günə qədər Avropa İttifaqı ABŞ-ın “çətiri” altında təhlükəsizliyini təmin edirdi. ABŞ-ın geri çəkilməsindən sonra Aİ-nin əvvəlki səviyyədə öz təhlükəsizliyini təmin etməsi o qədər asan olmayacaq. Bu çox çətin proses olacaq. Aİ vahid təhlükəsizlik sistemini formalaşdırmaq üçün uzun zamana və çox böyük maliyyə vəsaitinə ehtiyacı duyur”.

***Yunis ABDULLAYEV***

# İsraildən İrana zərbə...

İsrail Hərbi Hava Qüvvələri İranın ərazisində genişmiqyaslı hücum əməliyyatları həyata keçirib. Qeyd edək ki, iyunun 13-də səhər saatlarından başlayaraq gün ərzində İsrail HHQ-nə məxsus 200-dən çox qırıcı təyyarə Tehran da daxil olmaqla İranın bir çox şəhərlərində strateji cəhətdən önəmli olan hərbi obyektlərə, xüsusilə də aerodromlara və ballistik raket mərkəzlərinə, o cümlədən nüvə obyektlərinə raket zərbələri endirib. İsrail HHQ-nin hücumlarında İslam İnqilabı Keşikçiləri Korpusunun Şirazdakı raket zavodu, Təbrizdəki aviabaza, Təbriz hava limanı, Natanzda və Fordodakı uranı zənginləşdirən zavodlar, ölkənin müxtəlif bölgələrində raket və hərbi texnika anbarları əsas hədəf kimi seçilib. Bununla yanaşı, hücum zamanı İranın bir sıra yüksək rütbəli hərbçiləri və nüvə alimləri də həyatını itirib. İran dövlət agentliklərinin məlumatlarına görə, hücum nəticəsində İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Məhəmməd Hüseyn Baqeri, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı Hüseyn Salami, Baş Qərargah komandanı Hatəm əl-Ənbiya, general Qulam Əli Rəşid, SEPAH-ın Quru Qoşunlarının və Kosmik Qüvvələrinin komandanları Məhəmməd Pakpur və Əhməd Əli Hacızadə, Bəsic komandiri Əlirza Süleymani, İran Ordusunun komandanı Əmir Musəvi və İranın Atom Enerjisi Təşkilatının rəhbəri Fereydun Abbasi və İslami Azad Universitetinin prezidenti Məhəmməd Mehdi Tehrançi daxil olmaqla 6 nüvə alimi həlak olub. İslam Respublikasının Ali Rəhbər Seyid Əli Xameneinin müşaviri Əli Şəmxani də həlak olanlar arasındadır.



İsrail Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, İsrail qırıcılarının zərbələri “dəqiq və qabaqlayıcı” olub. “Times of İsrael” informasiya agentliyinin məlumatında deyilir ki, hücumun məqsədi İranın nüvə proqramına ciddi zərər vurmaq və Tehranın İsrailə qarşı davam edən aqressiyasına cavab vermək idi. İrandan gözlənilən hücumlara gəlincə, İsrail baş nazirinin ofisinin müşaviri Dmitri Gendelman TASS-a açıqlamasında deyib ki, İsrail İranla müharibə ehtimalına hazırdır. Gendelman, həmçinin vurğulayıb ki, İsrail həm müdafiədə, həm də hücumda ilk növbədə öz hərbi qüvvələrinə və imkanlarına güvənir. İsrail Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi Eyal Zamir isə yerli mətbuata açıqlamasında bildirib ki, İsrail Müdafiə Ordusu on minlərlə ehtiyatda olan hərbçini xidmətə çağırmağa başlayıb.

### İsrail hücuma əvvəlcədən hazırlaşıb

Eyni zamanda İsrail mediası bildirib ki, hücum uzun müddət ərzində hazırlanıb və yüksək rütbəli hərbi məmurlar və alimlər haqqında ətraflı məlumatlar əldə olunub. Əməliyyat İsrail Müdafiə Nazirliyi və MOSSAD arasında sıx əməkdaşlıq çərçivəsində həyata keçirilib. Agentliyin məlumatında bir məqam da vurğulanır ki, MOSSAD-ın xüsusi bölmələri əvvəlcədən mərkəzi İrandakı zenit-raket batareyalarının (SAM) yaxınlığında yüksək dəqiqlikli silah sistemləri yerləşdirib. İsrail Hərbi Hava Qüvvələri havadan hücuma başlayanda bu sistemlər aktivləşdirilib və eyni vaxtda dəqiq zərbələr endirərək əsas hədəfləri vurub. İsrail KİV-lərində MOSSAD -ın İran daxilində keçirdiyi əməliyyatda İranın hava hücumundan müdafiə sistemlərini məhv etdiyi barədə də məlumatlar yer almaqdadır.



### Nüvə obyektlərində sızma baş verməyib

Beynəlxalq Atom Enerjisi Agentliyinin rəhbəri Rafael Qrossi öz sosial şəbəkə hesabında qeyd edib ki, İran hakimiyyəti İsrailin zərbələri nəticəsində İsfahan və Fordo nüvə obyektlərinə zərər dəymədiyi barədə Beynəlxalq Atom Enerjisi Agentliyinə (IAEA) məlumat verib. Qrossi əlavə edib ki, təşkilat İrandakı vəziyyəti diqqətlə izləyir və radiasiya səviyyəsi ilə bağlı ölkənin səlahiyyətli orqanları ilə əlaqə saxlayır.

***Yunis ABDULLAYEV***

# Gələcəkdə yazılmış kitab

## Herman Hessenin “Muncuq oyunu” romanı haqqında

*əvvəli ötən sayımızda*

Herman Hesse əsər boyu ruhi müvazinətin, mənəvi tarazlığın qorunmasının vacibliyini müxtəlif vasitələrlə dönə-dönə vurğulayır. Gənc Knextin rəğbəti də, nifrəti də aşıb-daşan xarakteri güclü şəxsiyyət saymasına ustadı müdrik təbəssümlə cavab verir, deyir ki, üzdən baxanda elə görünür, ancaq heç də elə deyil. Ustadın fikrincə, Knextin ehtiras dediyi qüvvə ruhun gücü yox, onun kənar aləmlə sürtüşməsidir. Hərisliyin hökm sürdüyü canın gücü-qüvvəti yanlış hədəfə yönəlir, ona görə də belə can gərginlikdən, həyəcandan qurtula bilmir. Kim arzuların ali qüdrətini düz mərkəzə, həqiqi varlığa, kamilliyə yönəltsə, daha çox sakitlik tapır, onun qəlbinin alovu gözə görünmür. Ehtiraslı, coşqun tip tez hövsələdən çıxır, tez alışıb tez də sönür; sakit, müdrik xaraktersə ən gərgin vəziyyətdə də dincliyini, tarazlığını qoruyur, qızğın müzakirə zamanı belə qışqırıb əl-qolunu oynatmır, təcavüzkar tövrlə özünü təsdiqləməyə can atmır. Əsl güclü şəxsiyyət budur, bunlardır.

***

Yozef Knextin məktəb yoldaşı Plinio Dezinyori bir xarakter kimi baş qəhrəmanın tam tərsi, onun antipodudur. Onların soyadları da şəxsiyyətlərinin, xasiyyətlərinin ifadəsidir: Knext - nökər, xidmətçi, Dezinyori - ağa, cənab deməkdir. Knext əqidəsinin qulu, qoşulduğu ordenin sıralarında xidmət keçən sadiq nökər, Dezinyori həyatının ağası, bu dünyadan payına düşən nə varsa, hamısının şəriksiz sahibidir. Yozef Knext Dezinyorinin Kastaliyadakı ruhu, Plinio Dezinyori Knextin ayağını yerə bərk basan cismidir. Don Kixot üçün Sanço Pansa, Oblomov üçün Ştolts kimdirsə, Knext üçün də Dezinyori odur. Plinio təhsil alandan sonra Kastaliya ölkəsinə bağlanıb qalmır, ideal məkanı tərk edib real dünyanın qoynuna atılır. Knext ruhlar aləmini, Dezinyori təbiəti, təbii həyatı təmsil edir. Knextin vəzifəsi mənəvi prinsiplərdən, ruhi intizamdan məhrum təbii həyatın insanı necə bir heyvani vəziyyətə saldığını, tənəzzülə uğratdığını sübuta yetirməkdir. Dezinyorinin borcu yalnız saf ruha güvənən bir ömrün necə qorxunc qəzalara, necə gülünc situasiyalara düşdüyünü, barsız-bəhərsiz sona çatdığını göstərməkdir. Dostlar eyni varlığın iki yarısıdır. Biri ruhdur, o biri bədən, biri tanrının maraqlarını qoruyur, o biri təbiətin. Biri əbədiyyət xülyalıdır, o biri dünya sevdalı.

Plinio Dezinyorinin əsli-kökü, malımülkü, dünyalılar arasında güclü nüfuzu, sanballı məqamı, hələ üstəlik bir oğlu da var. Yozef Knext isə təkdir, Tanrı kimi, ruh kimi tək, onun əsli-nəsəbi, kökü-kəməci də bilinmir. Kastaliyalıların keçə biləcəyi bütün mərhələləri adlayandan sonra miladi tarixlə təxminən 2200-cü ildə o, magistr dərəcəsinə yüksəlir. Bundan o yana onun Kastaliyada gedəcəyi bir yol, görəcəyi iş qalmayıb. Yozef Knext oxucuya, bəlkə müəllifin özünə də axıracan bəlli olmayan səbəbdən ruhlar olimpindəki işıqlı məqamını boşaldıb qaranlıq dünyaya enmək qərarına gəlir. Burada o, dostu Plinio Dezinyori ilə tapışır, ruh bədənə, bədən ruha qovuşur. Dezinyorinin bioloji oğlu Knextin mənəvi oğluna çevrilir, Yozef dostuyla özünün şərikli balasına dərs deməyə, tərbiyə verməyə başlayır. Ancaq bir neçə gün sonra şagirdinin ardınca dağ gölünə girən Knext buzlu suda boğulub batır. Zamanın əli girməyən yerdən fələyin təsir dairəsinə düşən magistr ölümlü dünyanın kəndirini boynuna könüllü dolayıb canını fələyə təhvil verir.

Bununla da romanın əsas hissəsi başa çatır. Ardınca Knextin şeirləri, bir də üç keçmiş həyatının qissələri gəlir.

***

Herman Hesse Yozef Knextin təmsil elədiyi mənəvi dünyanı Plinio Dezinyorinin diliylə danışan təbii aləmə qarşı qoymaqla onları eyni vahid qaynaqdan bəslənən, həm bir-biriylə rəqabət aparan, həm də bir-birini doğuran, bir-birini tamamlayan iki qütb, iki başlanğıc kimi qələmə verir. Utopik, ideal Kastaliyanın seyrçi, passiv həyatını real, maddi dünyanın fəal, aktiv həyatının astarı, tərs üzü kimi (yaxud da əksinə) göstərən yazıçı faktiki olaraq xeyirlə şəri, mənəviyyatla anti-mənəviyyatı eyni tərəzinin iki gözünə yerləşdirir. Ancaq bu, doğru yanaşmadırmı? Bu zaman yaxşıyla pis, ağla qara arasındakı fərq aradan qalxmırmı? Belə yanaşma bizi hansı etik nəticələrə aparıb çıxara bilər?

İdealist filosoflar bu məsələyə nə qədər təmkinli, rasional yanaşsalar da, ruhla materiya, düzlə əyri eyni bir ağacın qoşa budağı, eyni kökdən eyni şirəylə qidalanan əkiz qardaş ola bilməz. Onda gərək min illərə başa gəlmiş bütün etik mülahizələri küllüyə ataq, varlığın çövhərindən əxlaqı çıxarıb bəşəriyyətin yaralarına duz basaq, şəri də xeyir kimi toy-bayramla qarşılayaq. Bəli, şər bəzən xeyirin dirçəlişinə təkan verir, ancaq onun qardaşı kimi yox, düşməni kimi.

Aktiv bioloji həyat passiv mənəvi həyatın o biri başı, əkiz qütbü deyil, onun alternativi, əzəli rəqibidir. Fiziki aktivliyin o biri qütbü fiziki passivlik ola bilər - qaçarsan, sonra da dincələrsən. Bioloji varlığın iki ayrılmaz qütbü olan həyatla ölüm kimi - eyni vaxtda həm yaşayırsan, həm də ölürsən. Aktivliyin dayandığını nəzərdə tutan fiziki sükunətdən fərqli olaraq mənəvi sükunət özü də bir fəallıqdır, ruhun dincliyinə çatmaq ən böyük zəhmət, ən ağır işdir. Mənəvi fəaliyyət sahəsində dincəlməklə işləmək eyni məna, mahiyyət kəsb eləyir, çünki mənəviyyatın qütbü, mənfisi-müsbəti yoxdur, ruh dediyin sıfır rəqəmi kimi birqütblü, biryönlüdür. Ona görə də mənəviyyat bizə üzdə təzadlı görünən anlayışları (məsələn, azadlıqla zərurəti) qardaş dəyərlər kimi bir sapa düzüb bir məhlulun içində əridə bilir. Hessenin bu dünya üçün arzuladığı belə bir sintez mənəviyyat aləmində heç vaxt arası kəsilməyən, heç bir kənar müdaxiləyə ehtiyac duymayan əbədi prosesdir.

***

Maddi dünyada isə bu, mümkün deyil, orada daimi düşmənçilik hökm sürür, çünki orada əzəli qütbləşmə var. Çin fəlsəfəsinin diliylə desək, bir-birinin tərsi olan, qarşı duran İn-Yan başlanğıcları məhz materiyanın, maddi aləmin iki üzüdür, onun ruhla, mənəviyyatla bir əlaqəsi yoxdur. Makedoniyalı İsgəndər yel qanadlı atını çapıb ölkələr alanda daha çox öz vücudunun həyat qütbünü, müsbət emosiyalarını təmsil eləyirdi. Sağlamaz xəstəliyə tutulub can verəndəsə həmin vücud yerini ölüm qütbünə dəyişmiş, mənfi emosiyalara təslim olmuşdu. Bu aqibət gec-tez irili-xırdalı bütün varlıqları gözləyir, çünki maddi dünyada, yalan dünyada gerçək olan tək həqiqət ölümdür. Ancaq həmin İsgəndər ziyarətinə getdiyi çəlləkdə yaşayan filosof Diogenə münasibətdə qarşı qütb, astar üz deyil, alternativ başlanğıcdır. İsgəndər maddi dünyanın, Diogen mənəvi dünyanın elçisidir. Onlar arasındakı dialoq qütblərin yerüstü qarşıdurması yox, ruhla materiyanın, Tanrıyla Şeytanın kosmik miqyaslı müharibəsi, aləmlərin savaşıdır.

Yazıçının “Siddhartha” romanından danışanda toxunduğum məsələyə burada bir daha qayıtmaq istəyirəm: Budda ziddiyyətlərdən onları barışdırıb qovuşdurmaqla qurtulmamışdı, dinclik, sükunət təşnəsi qüdrətli ruhunun müdaxiləsiylə bir-birindən həyati asılılığı olan təzadları həqiqətin parladığı, gerçəyin aydınlandığı bir anda bir mənəvi həmləyə yoxa çıxarmışdı. Ziddiyyətlərin aradan qalxması, sıfırlanmasıyla onların barışması, qovuşması ayrı-ayrı məsələlərdir. Təzadları, məsələn, Hegel öz fəlsəfi sistemində dialektik metodla barışdırır, məsələn, “Master və Marqarita” romanında Bulqakov onları qovuşdurur. Hessedə isə bu alınmır - real dünyaya, əkizi (əslində alternativi) Dezinyoriyə əli çatar-çatmaz Knext həlak olur. Ona görə də Herman Hesse, Bulqakovun təbirincə desək, haqqın dərgahında işıq qatının yox, dinclik, sakitlik mərtəbəsinin sakinidir. İşıq qatı dərvişlərin, peyğəmbərlərin (mistik təfəkkür sahiblərinin), dinclik qatı zahidlərin, şairlərin (poetik təfəkkür yiyələrinin) məqamıdır. Hesse də gəlmiş-getmiş ən böyük asketlərdən, ədəbi rahiblərdən biri kimi ömrü boyu dilədiyi, can atdığı məqamda qərar tutub. Yeri abad olsun, dincliyi pozulmasın!

***

İkinci Dünya müharibəsinin ardınca bir çox başqa mədəni təsisatlar kimi Nobel mükafatları komitəsi də öz işini bərpa elədi. Ağır fasilədən sonra ədəbiyyat üzrə ilk Nobel mükafatı 1946-cı ildə “Muncuq oyunu” romanına görə Herman Hesseyə verildi. Tarixdə misli görünməmiş vəhşi, qanlı savaşdan çıxan bəşəriyyət mənəvi dəyərlərin hökmranlığından, nikbin xəyalların parıltısından, dinc, asudə həyatın təmtəraqsız axışından ötrü bərk darıxmışdı...



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Azərbaycan musiqisinin BÖYÜK HAMİSİ

## Ulu Öndər Heydər Əliyev milli musiqi sənətimizin inkişafında mühüm rol oynayıb



Son 100 illikdə mühüm inkişaf yolu keçmiş Azərbaycan mədəniyyəti və incəsənəti, xüsusilə, musiqi sahəsi özünün spesifik uğurları ilə seçilib. İstər regional, istərsə də beynəlxalq səviyyədə peşəkarlıq və milli çalarları ilə seçilən Azərbaycan musiqi sənəti olduqca zəngin bir yol keçərək mühüm irs formalaşdırıb. Musiqi sənətimizin qazandığı bu uğurların təməlində isə Azərbaycan dövlətinin qayğısı və diqqəti dayanır.

1993-cü ilin 15 iyunu Azərbaycanın müstəqilliyini xilas etməklə yanaşı, musiqimizin, mədəniyyətimizin inkişafına da mayak oldu. Məhz Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycan incəsənətinin inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Amma nəzərə almaq lazımdır ki, Ümummilli Liderimizin Azərbaycan musiqisinin inkişafına verdiyi dəstək, nümayiş etdirdiyi qayğı 1993-2003-cü illərlə məhdudlaşmır. Heydər Əliyev bütün zamanlarda Azərbaycan mədəniyyətinin BÖYÜK HAMİSİ olub...

Ulu öndər Heydər Əliyev deyirdi: “Mən bütün həyatımı xalqa xidmət etməyə həsr etmişəm”. Həqiqətən də müasir, qalib və dünya arenasında müsbət imici ilə tanınan Azərbaycanımızın inkişafının təməli məhz Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulub. Onun Respublikamıza rəhbərlik etdiyi hər iki dönəm - istər 1969- 1982-ci illər, istərsə də 1993-2003-cü illər ölkəmizin inkişaf tarixində mühüm atributları ilə seçilir. Ulu öndər Heydər Əliyev hər iki dönəmdə müasir dövlətçiliyimizin yeni modelini yaratmaqla yanaşı, milli mənəvi dəyərlərimizin, eləcə də musiqimizin inkişafına mühüm töhfələr bəxş etmişdir.

Heydər Əliyev dahi bəstəkarımız Üzeyir Hacıbəylidən başlamış müasir musiqi xadimlərinə qədər bütün sənətkarlara yüksək dəyər vermiş, bu sahənin daha geniş miqyasda tanınması üçün böyük əmək sərf etmişdir. Bununla bağlı ümummilli liderimizin aşağıdakı sözlərini xatırlamaq yerinə düşər: “XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçirir. Xüsusən incəsənətimizin böyük sahəsi olan musiqidə professionallıq yaranıbdır. Bu sahədə də dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda, fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır”.

Musiqi xadimlərimizin hər biri, o cümlədən dahi Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Səid Rüstəmov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Arif Məlikov və onlarla digər musiqi dünyamızın sütunları sayılan sənətkarlarımız Heydər Əliyevin Azərbaycan musiqi sənətinə yüksək diqqət və qayğısı barədə fikirlərini bildiriblər.

Hələ 1969-1982-ci illərdə SSRİ-nin digər respublikaları ilə müqayisədə böyük teatrların səhnələrində, əzəmətli konsert salonlarında Azərbaycanın görkəmli bəstəkarlarının səhnə əsərlərinin tamaşaya qoyulması, simfonik və kamera musiqisinin uğurla səsləndirilməsi bilavasitə Heydər Əliyevin dəstəyi ilə həyata keçirilirdi. Məhz onun uzaqgörənliyi, millətinə sonsuz məhəbbəti sayəsində Azərbaycan musiqisi təkcə keçmiş SSRİ-də deyil, həmçinin bütün dünyada tanındı. Dünyasını dəyişən görkəmli bəstəkarların xatirələrinin əbədiləşdirilməsi üçün ev muzeylərinin yaradılması, yubileylərinin təntənəli surətdə qeyd edilməsi, respublikamızın iri şəhərlərində onların adına küçə, məktəb, mədəniyyət ocaqları, musiqi kollektivlərinin verilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Neçə-neçə bəstəkarımız SSRI Xalq artisti adına layiq görüldü. SSRİ-nin ən yüksək orden və medalları ilə təltif olundular. Elə onu demək kifayətdir ki, üç böyük bəstəkarımız - Qara Qarayev, Niyazi, Fikrət Əmirov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər.

Heç kimə sirr deyil ki, həmin fəxri adların verilməsi xalqımızın böyük oğlu, milli və professional musiqimizin təəssübkeşi və xeyirxahı Heydər Əliyevin təqdimatı və onun şəxsiyyətinə olan ehtiram və hörmət əsasında mümkün olmuşdur.

Ulu Öndərin musiqi sənətinə verdiyi yüksək qiymət bu sahədə çalışanları yaradıcılığa ruhlandırmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan bəstəkarlarının və musiqişünaslarının əməyini təqdir etməsi, onların yaradıcılığını yüksək fəxri adlar və mükafatlarla dəyərləndirməsi bilavasitə Bəstəkarlar Ittifaqının fəaliyyətinə verdiyi qiymətin bariz təzahürüdür. Elə 1995-2003-cü illər ərzində Prezident Heydər Əliyevin fərmanı ilə görkəmli bəstəkarlarımız Tofiq Quliyev, Arif Məlikov, Müslüm Maqomayev ən yüksək mükafata - “İstiqlal” ordeninə, Azərbaycan Respublikasının xalq artistləri Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Azər Rzayev, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Musa Mirzəyev, Ramiz Mirişli daha bir yüksək Dövlət mükafatı - “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Bu müddətdə Şəfiqə Axundova, Oqtay Zülfüqarov, Emin Sabitoğlu Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülmüşlər.

Başqa sənət adamları kimi Azərbaycan bəstəkarları da dərin hörmət və ehtiram əlaməti olaraq cənab Heydər Əliyevə həsr olunmuş istər iri həcmli, istərsə də kiçik həcmli bir-birindən dəyərli əsərlər yazmışlar. Bu əsərlər arasında görkəmli bəstəkarlardan Cövdət Hacıyevin 8 saylı simfoniyasını, Arif Məlikovun 8 saylı “Əbədiyyət” adlı simfoniyasını, Vasif Adıgözəlovun “Azərbaycan” kantatasını, Ramiz Mirişlinin “Məşəl kimi yanan ürək” adlı odasını, Sərdar Fərəcovun “Böyük vətəndaş haqqında oda”sını, gənc bəstəkar Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poemasını və bəstəkarlarımızın geniş yayılmış onlarla mahnılarını qeyd etmək olar.

Xüsusilə 1993-cü ildən başlayaraq müstəqillik dövründə bəstəkarlarımız bütün janrlarda olduğu kimi, simfonik musiqi janrlarındakı əsərlərində də müasir zamanın aktual problemlərinə, respublikamızda baş verən hadisələrə öz münasibətini izhar etmiş, məhz dövrün məziyyətlərini musiqi dili ilə açmağa nail olmuşlar. Heydər Əliyevin apardığı mübariz siyasət musiqi ruhumuzda da öz əksini tapmışdır. Məhz Vətən və Qarabağla bağlı mövzular simfonik və vokal-simfonik iri həcmli proqramlı əsərlərdə öz dolğun təzahürünü tapmışdır. Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi”, “Qəm karvanı” oratoriyaları, Ramiz Mustafayevin “Haqq səninlədir, Azərbaycan” kantatası, Tofiq Bakıxanovun “Qarabağ harayı” simfoniyası, Aqşin Əlizadənin “Ana torpaq” odası, Sevda İbrahimovanın “Vətən şəhidləri” kantatası, Azər Dadaşovun “Şuşa” adlı 11 saylı simfoniyası, Nəriman Məmmədovun “Xocalı” adlı 7 saylı simfoniyası və s. parlaq səciyyəli proqramlı simfonik və vokal-simfonik əsərləri Ulu öndərimizin parlaq siyasi xəttinin ictimai-mədəni təbliğat vasitəsinə çevrilmişdir.



Beləliklə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mədəniyyətə, xüsusilə də musiqiyə göstərdiyi diqqət və qayğı, onun zəngin irsinin ayrılmaz tərkib hissəsidir. Musiqi xalqın ruhunun ifadəsidirsə, Heydər Əliyev bu ruhu həm qorumağı, həm inkişaf etdirməyi, həm də dünya miqyasında təbliğ etməyi dövlət siyasətinə çevirdi.

Heydər Əliyev Azərbaycan musiqisini milli kimliyimizin ayrılmaz parçası kimi dəyərləndirirdi. Onun təşəbbüsü və dəstəyi ilə muğam sənəti, aşıq yaradıcılığı, klassik musiqi və xalq mahnıları sistemli şəkildə qorunmağa və inkişaf etdirilməyə başlandı. Ulu Öndərin səyləri nəticəsində muğam sənəti təkcə yerli yox, beynəlxalq səviyyədə də tanındı. 1970-80-ci illərdə muğam ifaçılarının konsertləri Sovet İttifaqının müxtəlif şəhərlərində təşkil olunurdu, bu isə milli musiqimizin tanıdılmasında mühüm addım idi.

Ulu Öndər musiqi təhsilinin inkişafına da xüsusi önəm verirdi. Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Konservatoriyası kimi təhsil müəssisələrinin inkişafı və dünya musiqi məktəbləri ilə inteqrasiyası üçün konkret addımlar atıldı. O, gənc istedadların üzə çıxarılması və onların xarici ölkələrdə təhsil almasına şərait yaradılması istiqamətində də böyük təşəbbüslərlə çıxış edirdi.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın musiqi kollektivləri - Dövlət Simfonik Orkestri, Xalq Çalğı Alətləri Orkestri, Opera və Balet Teatrı, muğam ifaçıları, xor kollektivləri müxtəlif beynəlxalq festivallarda iştirak edərək və ölkəmizi layiqincə təmsil etdi. Onun təşəbbüsü ilə keçirilən mədəniyyət günləri, sərgilər və konsertlər Azərbaycanın zəngin musiqi mədəniyyətini dünyaya tanıtdı.

Nəticə olaraq, Heydər Əliyevin musiqiyə verdiyi dəyər yalnız bir dövlət başçısının mədəniyyətə münasibəti deyildi. Bu, musiqi vasitəsilə milli ruhun qorunması, gələcəyə ötürülməsi və dünyaya tanıdılması missiyasının bir hissəsi idi. Onun irsi bu gün də Azərbaycan musiqisinin inkişafında yol göstərici işıq olaraq qalır.




Sevindirici haldır ki, Azərbaycanın musiqi irsinin qorunması və inkişaf etdirilməsi istiqamətində atılan addımlar, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kurs Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilir. Prezident İlham Əliyev hər zaman bəyan edir ki, mədəniyyət xalqın ruhudur və bu ruhu yaşatmaq dövlətin ali vəzifələrindən biridir. Bu baxış bucağından yanaşaraq, o, Azərbaycanın zəngin musiqi irsinin - muğamın, xalq mahnılarının, klassik və müasir bəstəkarlıq məktəbinin, aşıq sənətinin və digər janrların inkişafına böyük diqqət ayırır.

Heydər Əliyevin muğama olan xüsusi sevgisi və yanaşması onu Azərbaycanın milli kimliyinin rəmzinə çevirdi. O, muğamın təkcə musiqi deyil, milli-mənəvi yaddaş olduğunu vurğulayırdı. Bu baxış sonradan davam etdirildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə muğam sənətinə verilən beynəlxalq dəyər, keçirilən muğam festivalları, muğam mərkəzlərinin yaradılması, gənc ifaçıların yetişdirilməsi və musiqi məktəblərinin yenidən qurulması bu siyasətin real nəticələridir. Muğamın UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi də bu səylərin zirvəsi kimi tarixə düşüb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət və musiqi siyasəti yalnız paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir. Qarabağın azad olunmasından sonra Şuşada - Azərbaycan mədəniyyətinin paytaxtında - “Xarıbülbül” musiqi festivalının bərpası və orada milli musiqimizin səslənməsi bu siyasətin həm rəmzi, həm də strateji təcəssümüdür. Bu, həm musiqimizin əzəmətini, həm də xalqımızın mənəvi qələbəsini dünyaya bəyan edən hadisədir.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin milli musiqiyə göstərdiyi qayğı və diqqət bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışlara uyğun şəkildə davam etdirilir. Bu yol - milli ruhun, musiqi mədəniyyətimizin və mənəvi irsimizin yaşadılması yoludur. Və bu yol Azərbaycanın sabaha inamla addımlayan mədəniyyət salnaməsinə qızıl hərflərlə yazılır.



**Nurtac Ağayeva,**
**Bakı Musiqi Akademiyasının tələbəsi**


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4998
Sifariş: 1182
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova